QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 186 (5417) 13 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## İlham Əliyev: "Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq"

*Azərbaycan Prezidenti bu sözləri Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında deyib*



Səh 2

**Bolqarıstan Prezidenti Azərbaycana rəsmi səfərə gəlib**



4

**Nazirlər Kabinetində Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib**



4

**Pentaqon nümayəndəsi: ABŞ terrorizmlə mübarizədə Azərbaycanı vacib tərəfdaş hesab edir**



7

**Vüqar Rəhimzadə: "AŞPA-nın məlum qətnamələri Avropa dəyərlərinə və demokratik prinsiplərə xəyanətdir"**



6

**Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda 550 milyon tondan çox neft ehtiyatı var**



7

**Ekspert: "Yaqland erməni lobbisinin korrupsiya tələsinə düşərək onların iş icraçısına çevrilib"**



7

10

**Xoşbəxt Yusifzadə: Azərbaycanda 2 milyardıncı ton neft noyabrın ilk həftəsində hasil olunacaq**



4

**"Vladimir Putin ilin sonunadək İran-Rusiya-Azərbaycan görüşündə iştirak edəcək"**



16

**"Futbol Messiyə mundialın kubokunu borcludur"**



# İlham Əliyev: “Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq”

*Azərbaycan Prezidenti bu sözləri Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında deyib*



**AZƏRTAC-ın xüsusi müxbirinin xəbər verdiyi kimi, oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər. Dövlət başçıları birgə foto çəkdirdikdən sonra iclas öz işinə başladı.**

İclasın gündəliyinin kifayət qədər zəngin olduğunu deyən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, burada MDB çərçivəsində qarşılıqlı əlaqələrin gələcəkdə möhkəmləndirilməsi yolları müzakirə olunacaq, əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətində fikir mübadiləsi aparılacaq. Rusiya Prezidenti vurğuladı ki, iclasda əsas diqqət ənənəvi olaraq iqtisadi, ticari və investisiya qoyuluşu sahələrində, həmçinin humanitar sahədə əlaqələrin inkişafına yönələcək. Prezident Vladimir Putin qarşılıqlı maraqlara əsaslanan yeni iri layihələrin həyata keçirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğuladı, görüşün mədəniyyət, təhsil, elm, turizm sahələrində təcrübə mübadiləsinin genişləndirilməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.



Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev qeyd etdi ki, iclasın gündəliyi 16 məsələdən ibarətdir. Təqdim olunan sənədlərin layihələri ekspertlər tərəfindən araşdırılıb, ölkələrin nümayəndələri ilə razılaşdırılıb. İqtisadi sahəyə aid sənədlər isə MDB İqtisadiyyat Şurası tərəfindən təsdiq olunub. Prezident İlham Əliyev iclasda çıxış etdi.

*Ardı Səh. 3*

## Rəsmi xronika

Prezident İlham Əlyev Əli Məmmədova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Pərviz Oqtay oğlu Şahbazovun Azərbaycanın energetika naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev: "Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq"

*Azərbaycan Prezidenti bu sözləri Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında deyib*

**Əvvəli Səh. 2**

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

-Yenidən Rusiyada, Soçidə olmağıma şadam. Əvvəlcə demək istərdim ki, Azərbaycan ənənəvi olaraq MDB-nin işində iştirak etməyə çox böyük əhəmiyyət verir, bu təşkilatın fəal üzvüdür və əmindir ki, MDB-nin böyük gələcəyi var. Bu məkan bizə müntəzəm surətdə fikir mübadiləsi aparmaq imkanı verir.



Mən çıxışımda əsasən humanitar xarakterli məsələlərə toxunmaq istərdim. Azərbaycan beynəlxalq humanitar əməkdaşlıqda mühüm rol oynayır. Bizim ölkədə müntəzəm surətdə beynəlxalq xarakterli mühüm tədbirlər keçirilir. Onların arasında Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumunu xüsusi qeyd etmək istərdim. Deyə bilərəm ki, bu Forum müəyyən mənada nadir, əsasən humanitar əməkdaşlıq, konfessiyalararası dialoq, sivilizasiyaların dialoqu ilə bağlı məsələlərə diqqət yetirən tədbirə çevrilib. Azərbaycanda həm də mütəmadi olaraq Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum keçirilir. Bu Forumun gündəliyi də Bakı Humanitar Forumunun gündəliyi ilə təxminən eynidir. Beləliklə, Azərbaycan hər il bu mövzularda diskussiyalar üçün məkana çevrilir. Düşünürəm ki, multikulturalizm, konfessiyalararası dialoq ilə bağlı məsələlər üzərində diqqətin cəmləşdirilməsinə yönəlmiş səylərin birləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Həmçinin ötən il Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib. Beləliklə, bizim ölkəmiz humanitar xarakterli məsələlərin müzakirəsi üzrə dünya mərkəzlərindən biri kimi artıq özünü tanıdıb.

Bizim indiyə qədər keçirdiyimiz və keçirməkdə olduğumuz idman tədbirlərini, xüsusən 2015-ci ildə Birinci Avropa Oyunlarını və bu il IV İslam Həmrəyliyi Oyunlarını da bu məsələlərə aid etmək olar. İştirakçı ölkələrin ümumi sayı 100-dən çox idi. Bu Oyunlar həm də mədəniyyətlərarası, konfessiyalararası dialoqun yaxşı formatı oldu. İki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarının, həm də İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim iradəmizi, mədəniyyətlərarası və dinlərarası dialoqa Azərbaycanın töhfəsini bir daha təsdiq edir.

Turizm ilə bağlı məsələlər xüsusən valyuta mədaxilləri müəyyən dərəcədə azalmış ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bunlar neft-qaz resurslarına malik olan ölkələrdir. Mən deyərdim ki, turizm ixracın vacib istiqamətidir və burada, bizim bu məkanda turizmin inkişafı, müəyyən birgə turizm marşrutları məsələlərinin müzakirəsi də çox böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək istədiyim sonuncu mövzu təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri ilə bağlıdır. Biz şadıq ki, Azərbaycan bu istiqamətdə də risklərin azaldılması üçün imkan yaradır. Xüsusi qeyd etmək istərdim ki, Rusiya və ABŞ ordularının baş qərargah rəislərinin birinci görüşü Bakıda keçirilib. Biz şadıq ki, bu görüşün keçirilməsi üçün bizim ölkəmiz seçilib. Biz məkan təqdim etdik, lakin belə bir görüşün Azərbaycanda keçirilməsi faktının özü, əlbəttə, bizi sevindirir və həm də risklərin azaldılması məsələsində Azərbaycanın oynadığı rolu göstərir. Rusiyanın Baş Qərargah rəisinin və NATO-nun hərbi komandanlığının birinci görüşü də Bakıda keçirilib. Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq.





## Nazirlər Kabinetində Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib

Oktyabrın 12-də Azərbaycan Respublikasının Nazirlər Kabinetində Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 2017-ci il 9 oktyabr tarixli Sərəncamından irəli gələn vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov bildirib ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün bir sıra işlər həyata keçirilib. Bu istiqamətdə layihələr hazırlanıb, sahibkarlarla görüşlər təşkil edilib və onlar arasında əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı maarifləndirmə işləri aparılıb. Sərəncamdan irəli gələn əsas məsələlərdən biri kimi, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün kütləvi informasiya vasitələrində maarifləndirmə işlərinin davam etdirilməsi tövsiyə edilib.

Əli Əhmədov qeyd edib ki, qeyri-rəsmi məşğulluqla bağlı xeyli sayda fakt aşkarlanaraq aradan qaldırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə qeyri-rəsmi məşğulluqla mübarizə davam etdiriləcək və bu cür hallar aşkarlanaraq qarşısı alınacaq.

Müzakirələrdə yeni iş yerlərinin yaradılması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və qeyri-rəsmi məşğulluğun aradan qaldırılması məsələlərinin prioritet olduğu vurğulanıb. Həmçinin qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsi məsələsinə də toxunulub. Qeyd olunub ki, dövlətimizin başçısının tapşırığına əsasən bu istiqamətdə lazımi işlər görülür. Bundan başqa, komissiya qarşısında qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə təşkilati məsələlər, tədbirlər planından irəli gələn tapşırıqların icrasının tənzimlənməsi və işin səmərəli təşkil edilməsi məqsədilə hazırlanan nəzarət cədvəli forması, qeyri-rəsmi məşğulluğun qarşısının alınması ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məsələləri də müzakirə mövzusu olub.

Sonda "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"ndan irəli gələn məsələlərə ciddi nəzarət edilməsi məqsədilə xüsusi icraya nəzarət mexanizminin yaradılması, iş qrafikin müəyyənləşdirilməsi, hər 3 aydan bir komissiyanın iclasının keçirilməsi ilə bağlı razılığa gəlinib. İclasa yekun vuran Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov vurğulayıb ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində görülən işlərlə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcək.

## Bakıda Azərbaycan-ABŞ biznes-forumu keçiriləcək



Oktyabrın 16-da ABŞ-ın iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Bakıda Azərbaycan-ABŞ biznes-forumu keçiriləcək. Tədbir İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə baş tutacaq.



AZPROMO-dan AZƏRTAC-a bildiriblər ki, tədbirə tikinti və tikinti materialları, İKT, kənd təsərrüfatı texnologiyaları, mühəndislik, ödəmə sistemləri, avtomobil icarəsi, logistika, radar sistemləri, aerokosmik müdafiə sistemləri, təhlükəsizlik, layihələrin idarə olunması, maliyyə, avadanlıq, ağartı məhsulları və digər sahələrdə fəaliyyət göstərən 17 ABŞ şirkətinin qatılacağı gözlənilir.

## "Vladimir Putin ilin sonunadək İran-Rusiya-Azərbaycan görüşündə iştirak edəcək"



Rusiya Prezidenti Vladimir Putin, planlaşdırıldığı kimi, ilin sonunadək İrana səfər edəcək, orada keçiriləcək İran-Rusiya-Azərbaycan formatında üçtərəfli görüşdə iştirak edəcək. AZƏRTAC TASS Agentliyinə istinadla bildirir ki, bu barədə Rusiya dövləti başçısının köməkçisi Yuri Uşakov jurnalistlərə məlumat verib.

## Bolqarıstan Prezidenti Azərbaycana rəsmi səfərə gəlib

Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev oktyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevi və xanımı Desislava Radevanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

## Aİ-nin eksperti: "ASAN xidmət"in fəaliyyəti sübut edir ki, Azərbaycan dövləti vətəndaşlara qayğı göstərir



Azərbaycanda fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərində vətəndaşlara dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsi metodlarından məmnun qaldım. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara lazım olan bütün xidmətlər rahat formada, müasir texnologiyalar tətbiq edilməklə vahid bir məkandan göstərilir və beləliklə, onlar müxtəlif dövlət qurumlarına sənədlər toplamaq üçün getmirlər.

AZƏRTAC xəbər verir ki, bu sözləri 5 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olan kibercinayətkarlıqla mübarizəyə dair beynəlxalq konfransın iştirakçısı, Avropa İttifaqının eksperti Stanislav Pavlovski jurnalistlərə müsahibəsində deyib.

"Bu, onu sübut edir ki, Azərbaycan dövləti vətəndaşlara qayğı göstərir və bu, yalnız alqışlana bilər. Azərbaycanda vətəndaşlar üçün yaradılan belə bir şəraitin öz ölkəm olan Moldovada da yaradılmasını arzulayıram", - deyə S.Pavlovski əlavə edib.

## Q.Paşayeva: Azərbaycan Ermənistanın dəstəklədiyi təşkilatların terror aktlarından böyük əziyyət çəkib



AŞPA-da "İŞİD tərəfindən həyata keçirilmiş insanlıq əleyhinə cinayətlərin, yaxud mümkün soyqırımlarının təhqiqatı və cəzalandırılması" adlı qətnamə layihəsinin müzakirəsi zamanı Milli Məclisin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva Azad Demokratlar qrupu adından çıxış edib. Milli Məclisin deputatı bildirib ki, terrorla mübarizədə ikili standartlara yol verilməməlidir. Türkiyənin İraq və Suriya ilə sərhədlərində İŞİD zülmündən qaçan insanlarla görüşündən danışan Qənirə Paşayeva onlara AŞPA da daxil olmaqla, beynəlxalq təşkilatlar və Avropa dövlətləri tərəfindən İŞİD-ə qarşı mübarizədə dəstək verilmədiyini söyləyib. O, qaçqınların kömək çağırışını avropalı parlamentarilərə çatdırıb. Qaçqınların yalnız Türkiyə dövləti tərəfindən dəstəkləndiklərini vurğulayıb.

Qrup adından çıxış edən deputat əhalisinin əksəriyyətinin müsəlman olduğu Azərbaycanın da İŞİD-lə mübarizədə ciddi addımlar atdığını bildirib. O deyib: "Terror təşkilatlarına qarşıyıq və Ermənistan tərəfindən dəstəklənən terror təşkilatlarından böyük zərərlər görmüş bir ölkə olaraq Azərbaycan bütün terror təşkilatları ilə sərt mübarizə aparır.

İŞİD beynəlxalq bir terror təşkilatıdır. Bu təşkilatın sıralarında müxtəlif millətlərdən və fərqli dinlərdən insanlar var. Bu səbəbdən İŞİD-i müsəlmanlardan ibarət bir terror təşkilatı olaraq görmək və müsəlmanlara qarşı mənfi fikir yaratmaq istəyənlərə də fürsət verməməliyik. İŞİD-in etdiklərinin İslam dini ilə heç bir əlaqəsi yoxdur. Avropada bəzi siyasətçilərin İŞİD-in əməllərini bəhanə edərək İslam dini və müsəlmanlar əleyhinə etdikləri çağırışlara da burdan etirazımızı bildirməliyik. Bu cür addımların, Avropada islamofobiyanın artmasına təkan verən hərəkətlərin hansı dəhşətli nəticələrə səbəb olacağını, hansı faciələrə gətirib çıxaracağını nəzərə almalıyıq. Məsuliyyətsiz açıqlamalar sadəcə İŞİD-in işinə yarayır. Avropada İslam əleyhinə fikirlərin olması hamımızı ciddi şəkildə narahat etməlidir və hamımız birlikdə belə mənfi halların qarşısını almaq üçün ciddi çalışmalıyıq. Bu gün dünyadakı münaqişələrin azalması üçün mədəniyyətlərarası və dinlərarası dialoqun artmasına ehtiyac var. Terrorla təsirli şəkildə mübarizə aparmaq üçün bütün Avropa ölkələri bu sahədə İslam ölkələri ilə əməkdaşlığını artırmalıdır. Bu gün ehtiyac duyduğumuz tək şey dialoq və əməkdaşlıqdır".

## Azərbaycan MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında təmsil olunub

Oktyabrın 12-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov MDB Müdafiə Nazirləri Şurasının Düşənbədə keçirilən növbəti iclasında iştirak edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirlərinin görüşündə hərbi əməkdaşlıq məsələləri müzakirə olunub.






# Yeni Azərbaycan Partiyası regionun ən iri və ən güclü siyasi partiyasıdır

## *YAP Cəbrayıl rayon təşkilatının IX konfransı keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının IX konfransı keçirilib. Konfransdan əvvəl tədbir iştirakçıları və qonaqlar Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər.***

Cəbrayıl rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Biləsuvar rayonundakı 4 saylı qəsəbə klubunda öz işinə başlayan konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Konfransı Cəbrayıl rayon icra hakimiyyətinin başçısının birinci müavini, YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev açaraq, geniş hesabat məruzəsi ilə çıxış edib. A.Fərzəliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu və bu gün ölkəmizin ictimai-siyasi həyatının aparıcı qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyası regionun ən iri və ən güclü siyasi partiyalarından biridir: "Dahi Öndər Heydər Əliyev ideyalarını özünün ideoloji və siyasi mübarizəsinin əsas silahı kimi mənimsəyən YAP ötən 25 il ərzində bir çox uğurlara imza atıb. Partiyamızın sıraları genişlənərək 700 mini ötüb, beynəlxalq nüfuzu artaraq möhkəmlənib. Bu gün Yeni Azərbaycan Partiyasına Prezident İlham Əliyevin Sədrlik etməsi və bu yolda Onun yorulmaq bilməyən titanik fəaliyyəti və partiyamızın inkişafının və qazandığı uğurların əsasını təşkil edir".

Cəbrayıl rayon icra hakimiyyətinin başçısı Kamal Həsənov konfransda çıxış edərək bildirib ki, müasir müstəqil Azərbaycan Respublikasının memarı, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və sədaqətlə davam etdirilməsi nəticəsində, ölkəmiz ildən-ilə qüdrətlənir və inkişaf edir".

Konfransda Milli Məclisin deputatı Astan Şahverdiyev çıxış edərək partiyanın fəaliyyətindən, ölkəmizin sürətli inkişafından söz açıb: "YAP ölkəmizin siyasi-sosial həyatında həmişə ön sırada olan söz sahibi, yeni cəmiyyət quruculuğunun hərəkətverici qüvvəsi, xalqımızın milli məfkurəsinin ideoloji bazası olmuşdur. Məhz xalqın istək və arzularının əvəzsiz ifadəçisi olan partiyamız indiyə qədər keçirilmiş bütün siyasi tədbirlərdə, parlament, prezident, bələdiyyə seçkilərində və referendumlarda parlaq qələbələr qazanmışdır. Şübhə yoxdur ki, bu uğurlar davamlı olacaqdır".

Konfransda YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən, keçdiyi inkişaf yolundan geniş söhbət açıb: "Hər kəsə yaxşı məlumdur ki, müstəqilliyin ilk illərində Azərbaycan çətin bir vəziyyətdə idi. Ölkədə qarışıqlıq, anarxiya hökm sürürdü. Bir tərəfdən, Ermənistanın işğalçılıq siyasəti, digər tərəfdən isə, daxili çəkişmələr Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təhlükə qarşısında qoymuşdu. Belə bir ərəfədə Azərbaycanın gələcəyini düşünən 91 nəfər ziyalı Ümummilli Lider Heydər Əliyevə müraciət etdi. Məhz bu müraciətdən sonra Naxçıvanda 550 nəfər nümayəndənin iştirakı ilə 1992-ci ilin 21 noyabr tarixində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda Ulu Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Eyni zamanda, partiyanın Siyasi Şurası və İdarə Heyəti formalaşdı. Beləliklə, YAP böyük bir güc mərkəzi kimi ölkənin ictimai-siyasi həyatına daxil oldu". Bununla Azərbaycanın xilasının başlandığını qeyd edən V.Rəhimzadə qeyd edib ki, Yeni Azərbaycan Partiyasının hakimiyyətdə olduğu illər ərzində ölkə həyatında əhəmiyyətli dəyişikliklər müşahidə olunmuş və hər bir vətəndaşın yaşayış səviyyəsində ciddi irəliləyişlər baş vermişdir.

Konfransda daha sonra təşkilati məsələlərə baxılıb. Arif Fərzəliyev yekdilliklə rayon təşkilatının sədri seçilib. Konfransda, həmçinin, YAP Cəbrayıl rayon təşkilatının 9 nəfərdən ibarət idarə heyəti, 27 nəfərdən ibarət şura üzvləri və 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu seçilib.

Sonda bir sıra YAP fəallarına Fəxri fərmanlar təqdim olunub.

**Zümrüd Bayramova**

# Xalqın Yeni Azərbaycan Partiyasına olan inam və etibarı böyükdür

## *YAP Qax rayon təşkilatının IX konfransı keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatının IX konfransı keçirilib. Konfransda millət vəkili Kamilə Əliyeva, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abasov, partiya fəalları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Konfrans nümayəndələri ilk öncə Ümummilli Liderimiz Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzmüş və xatirəsini ehtiramla yad etmişlər.

Rayon Mədəniyyət Evində öz işinə başlayan konfransı giriş sözü ilə açan YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov təşkilatın VIII konfransından ötən dövr ərzindəki fəaliyyəti ilə bağlı hesabat məruzəsi ilə çıxış edib. Nizami Əhmədov qeyd edib ki, Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən, avanqard siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi artıq yaxınlaşır: "25 ildə YAP Azərbaycan cəmiyyətinin həm siyasi, həm iqtisadi, həm sosial, həm də mədəni həyatında uğurlu layihələrilə, həmçinin, bu gün Prezident İlham Əliyevin sosial-iqtisadi, siyasi və digər istiqamətli işlərində cəmiyyətin səfərbər edilməsində əhəmiyyətli və eləcə də, ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynamışdır. 700 mindən artıq üzvü olan Yeni Azərbaycan Partiyası, bu müddət ərzində, ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazana bilib".






Nizami Əhmədov hesabat dövrü ərzində partiya üzvlərinin sayının artdığını vurğulayaraq qeyd etdi ki, hal-hazırda təşkilatımızda 4495 nəfər partiya üzvü vardır. Onlardan 2457 nəfəri qadınlar, 1940 nəfəri isə gənclərdir.

Konfransda millət vəkili Kamilə Əliyeva çıxış edərək Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının demokratik təsisatların formalaşmasında və inkişafında, xalqın sosial rifah halının yaxşılaşmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında xüsusi rola malik partiya olduğunu bildirdi. Qeyd etdi ki, əldə olunan uğurların, nailiyyətlərin nəticəsidir ki, xalqın YAP-a olan inam və etibarı böyükdür.

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev konfransda çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli və qururverici tarixi yolundan, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun gündən-günə yüksəlməsindən və əldə etdiyi iqtisadi uğurlardan bəhs etdi. Bildirdi ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranmışdır: "Ağır, çətin günlərdə, başlıcası, Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, dövlətimizi xilas etmək məqsədilə sağlam qüvvələr, ziyalılar Ulu Öndərimiz Heydər Əliyevə müraciət etdilər, Ondan Bakıya gəlib xalqı və dövləti bəlalardan xilas etməyi xahiş etdilər. Ulu Öndər Heydər Əliyev xalqla bir olduğunu, dövlətin üzləşdiyi problemlərə biganə qalmadığını Bakıya gəlməsi ilə nümayiş etdirdi".

B.Quliyev Dahi Öndər Heydər Əliyevin xalqın xahişi ilə hakimiyyətə gəlişindən sonra əldə olunan uğurlara tarixi baxış etdi: "Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkəmizin həyatında inqilaba bərabər islahatlar həyata keçirildi. Qısa müddətdə sabitliyə nail olundu, əfsanə kimi görünən "Əsrin Müqaviləsi" imzalandı. İqtisadi uğurlar fonunda əhalinin sosial vəziyyəti yaxşılaşmağa başladı, ordu quruculuğu həyata keçirildi, təhsildə və səhiyyədə nailiyyətlər əldə olundu. Bir sözlə, Dahi Öndərimiz dağılmış Azərbaycanın yerində qüdrətli, çiçəklənən, inkişaf edən və beynəlxalq aləmdə böyük nufuza malik Azərbaycan qurdu".

Konfransda çıxış edən YAP Qax rayon təşkilatı qadınlar şurasının sədri Sevil Əsgərova, gənclər birliyinin sədri Elbrus Tağıyev, veteran partiya üzvü Əbdürrəhman Aşurov, şura üzvü Masiko Babacanaşvili qeyd etdilər ki, öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir.

Qax rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev konfransda çıxış edərək son zamanlar Qax rayonunda gedən abadlıq- quruculuq işlərindən, bu istiqamətdə partiya üzvlərinin fəallığından, regionların sosial-iqtisadi inkişafı çərçivəsində YAP Sədri, Cənab Prezident İlham Əliyevin apardığı siyasətdən geniş danışdı.

Çıxışlardan sonra təşkilati məsələlərə baxıldı. Nizami Əhmədov yenidən YAP Qax rayon təşkilatının sədri seçildi. Həmçinin, rayon təşkilatının 37 nəfərdən ibarət şurası, 15 nəfərdən ibarət idarə heyəti və 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu seçildi.

Konfransda partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim olundu.

**RƏFİQƏ**

## Yeni Azərbaycan Partiyası uğur və qələbələri ilə ümumxalq partiyasına çevrilib

*YAP-ın Nərimanov və Xəzər rayon təşkilatlarının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib*




Dünən Yeni Azərbaycan Partiyasının Nərimanov və Xəzər rayon təşkilatlarının birgə təşəbbüsü ilə partiyanın yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib. YAP Nərimanov rayon təşkilatının qərargahında keçirilən tədbirdə öncə iştirakçılar qərargahın foyesində Ulu Öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüb, Ümummilli Liderin xatirəsinə ehtiramlarını bildiriblər.



Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev bildirib ki, YAP-ın qurucusu, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı: "Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə əqidəli insanın onun sıralarında birləşməsi bu gün bir daha Ulu Öndər Heydər Əliyev fenomeninin, dühasının qüdrətindən xəbər verir".

YAP Xəzər rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Namiq Əhmədov da çıxışında bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı YAP ölkəmizin həyatında yeni mərhələnin əsasını qoyub, yarandığı vaxtdan siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib: "YAP Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verir".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu da, öz növbəsində, tədbir iştirakçılarını YAP-ın yaranmasının 25 illiyi münasibətilə təbrik edib. Millət vəkili YAP-ın yaradılmasının tariximizdə mühüm yer tutduğunu vurğulayaraq deyib ki, YAP siyasi təşkilat kimi, əslində, Azərbaycan xalqının sosial sifarişindən yaranan bir partiyadır: "YAP Azərbaycan tarixində Ulu Öndər Heydər Əliyev Dühasının imzasıdır, möhürüdür. Partiyamız qısa müddətdə Azərbaycan siyasi sisteminin ən güclü siyasi təşkilatına çevrilməklə, cəmiyyətdə dominant qüvvə kimi tanındı və bu, hazırda da belədir. Partiya yaranması ilə yanaşı, Azərbaycan cəmiyyətinə siyasi əxlaqla, siyasi mədəniyyətlə, eləcə də, siyasi hüquqla bağlı yeni dəyərlər gətirdi. YAP fəaliyyət göstərdiyi bütün dövrlərdə opponentləri, yəni müxalifət partiyaları və vətəndaş cəmiyyətinin digər subyektləri ilə münasibətlərini qarşılıqlı dialoq və sivil üsullarla qurmağa çalışdı. Azərbaycan cəmiyyətinə sadaladığımız dəyərləri gətirməklə, YAP özü də bir dəyərə çevrildi. Bu gün YAP Azərbaycan cəmiyyətində bir siyasi dəyərdir".

"İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da Azərbaycan xalqı qarşısında xidmətlərini davam etdirəcək və həmişə Azərbaycan xalqının partiyası olaraq qalacaq", - deyə Hikmət Babaoğlu çıxışının sonunda vurğulayıb.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev isə çıxışında bildirib ki, YAP xalqın sevdiyi və etimad göstərdiyi partiyadır: "Ona görə də, yarandığı qısa müddətdən sonra partiyamız hakimiyyətə gəldi. Xalqın təkidli tələbi ilə Bakıya qayıdan Ulu Öndər Azərbaycanı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı və qurucusu kimi daxil oldu. Əlbəttə ki, bu gün Ulu Öndərin əsasını qoyduğu siyasi kurs Möhtərəm Prezidentimiz, partiyamızın Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Tədbirdə çıxış edənlər - Bakı Humanitar Kollecinin direktor müavini Rasim Rzaxanov və Kooperasiya Universitetinin fakültə dekanı Vilayət Əliyev də qeyd etdilər ki, YAP Azərbaycanın müasir siyasi tarixində öz əhəmiyyətli rolu və önəmli siyasi uğurları ilə artıq ümumxalq partiyasına çevrilib.

Tədbirin sonunda partiyanın bir qrup fəal gəncinə Fəxri fərmanlar və hədiyyələr təqdim edilib və fəaliyyətlərinə uğurlar arzulanıb.

***Rövşən NURƏDDİNOĞLU***

## Vüqar Rəhimzadə: "AŞPA-nın məlum qətnamələri Avropa dəyərlərinə və demokratik prinsiplərə xəyanətdir"



"Bu gün Azərbaycan ictimaiyyətində Avropa Şurasına qarşı böyük etiraz var. Daxili və xarici siyasətində hər zaman Avropaya inteqrasiya yolunu tutan, Avropa Şurası ilə ikitərəfli əlaqələrə həssas yanaşan ölkəmiz, təəssüf ki, zaman-zaman qarşı tərəfdən haqsız və ədalətsiz münasibətlə üzüzə qalır. Elə bu günlərdə AŞPA-da həmməruzəçilər Stefan Şennak və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı hesabat üzrə qətnamənin, həmçinin, belçikalı parlamentari Alen Desteksin hazırladığı "Azərbaycanın Avropa Şurasında sədrliyi: insan hüquqlarına əməl edilməsi sahəsində atılacaq növbəti addımların vəziyyətinə dair" qətnamənin qəbul edilməsi qurumun ölkəmizə qarşı sərgilədiyi qərəzli münasibətin bariz nümunəsidir". Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadənin sözlərinə görə, bu gün ölkə daxilində, xüsusilə də, xaricdə ölkəmizin sürətli inkişafını gözü götürməyən anti-Azərbaycan ünsürlər var: "Azərbaycan malik olduğu enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edərək, Avropanın etibarlı enerji təchizatçısına çevrilməkdədir. Həyata keçirilən qlobal layihələr bu reallığı bir daha ortaya qoyur. Təəssüf ki, Avropada bəzi dairələr ölkəmizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzunu həzm edə bilmirlər. Ona görə də, bəzən bu cür qətnamələrin qəbul edilməsinin şahidi oluruq. Birmənalı şəkildə vurğulayıram ki, bu dairələrin arxasında erməni lobbisinin və erməpərəst qüvvələrin barmağı var. Bu isə, AŞPA-nın qərəzli dairələrin əlində alətə çevrildiyini bir daha təsdiqləyir. Məhz anti-Azərbaycan, erməniрərəst qüvvələrin xüsusi "fəallığı" sayəsində zaman-zaman ölkəmizə qarşı çirkin kampaniya həyata keçirilir. Ancaq AŞPA-nın ölkəmizlə bağlı məlum qətnamələri yalnız qurumun fəaliyyətinə kölgə sala bilər".

YAP Siyasi Şurasının üzvü qeyd edib ki, Avropa Şurasında islam ölkələrinə qarşı böyük bir qərəz hiss olunur: "Bu gün Avropada hökm sürən islamofobiya, ksenofobiya dünya üçün böyük təhlükədir. Bu halda, hansı insan hüquq və azadlıqlarından danışmaq olar? İnsanlar arasında dini və irqi ayrı-seçkilik qoymaq hansı Avropa dəyərlərinə uyğundur? Təbii ki, AŞPA qarşısında bu kimi bir çox məsələni qaldırmaq olar. Hər bir halda, hesab edirəm ki, AŞPA-nın məlum qətnamələri Avropa dəyərlərinə və demokratik prinsiplərə xəyanətdir".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Azərbaycan müstəqil siyasət yürüdür və heç kimin ölkəmizin daxili işlərinə qarışmağa haqqı yoxdur: "Qeyd etdiyim bu və digər məqamlar beynəlxalq hüququn təməl prinsiplərində öz əksini tapıb. Təəssüf ki, bu gün biz dünyada artıq "beynəlxalq hüquq" anlayışının arxa plana keçdiyini görürük. Bu gün "beynəlxalq hüquq" müstəqil və balanslaşdırılmış siyasət yürüdən dövlətlərə qarşı təzyiq vasitəsinə çevrilib. Bu isə qəbuledilməzdir. İstər AŞPA, istəsə də başqa bir beynəlxalq qurum Azərbaycanla zor dilində danışa bilməz. Bizim öz siyasətimiz və öz yolumuz var. Təbii ki, bu siyasət demokratik prinsiplərə, bəşəri dəyərlərə, dövlətçilik və milli maraqlara əsaslanır".

## Bakıda "Qloballaşan dünyada musiqi ənənələri" mövzusunda konfrans keçiriləcək



Oktyabrın 26-da Azərbaycan Milli Konservatoriyasında (AMK) Təhsil Nazirliyi və AMK-nın birgə təşkilatçılığı ilə "Qloballaşan dünyada musiqi ənənələri" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək. AMK-dən AZƏRTAC-a bildirilib ki, iki gün davam edəcək konfransda Türkiyə, Rusiya, ABŞ, Yaponiya, Özbəkistan və Qazaxıstandan olan etnomusiqişünasların, musiqi tədrisi üzrə mütəxəssislərin, professorların, həmçinin bir sıra beynəlxalq ekspertlərin iştirakı və məruzə ilə çıxışı nəzərdə tutulur. Konfransda "Musiqi ənənələrində qoruyucu mexanizmlər və funksional sistemlər", "Musiqi ənənəsi mədəni mənsubiyyətin nişanı və rəmzi kimi", "Etnomuisiqişünaslıqda müasir tədqiqat yanaşmaları", "Milli musiqi ənənələri və müasir bəstəkar yaradıcılığının qarşılıqlı əlaqələri", "Eklektik (hibrid, simbiotik) musiqi janr və üslublarında yenilənmə potensialı və multikultural mahiyyəti" və digər mövzuda məruzələr dinləniləcək.

## Heydər Əliyev adına NEZ-də istehsal olunacaq dizelin 40 faizi, benzinin isə 25 faizi ixrac ediləcək



Heydər Əliyev adına neft emalı zavodundakı (NEZ) modernləşdirmə işləri çərçivəsində zavodun 70-75 faizi yenidən qurulacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən Beynəlxalq Neft Sammitində SOCAR-ın strateji inkişaf üzrə vitse-prezidenti Tofiq Qəhrəmanov deyib. O bildirib ki, modernləşdirmə işlərindən sonra zavodda istehsal olunacaq dizel məhsulunun 40 faizinin, benzinin isə 25 faizinin ixrac edilməsi nəzərdə tutulur. Ümumilikdə zavodda 14 qurğunun yenidən qurulması planlaşdırılır. 2020-ci ildə zavod üzrə dizel, 2021-ci ildə isə neft fraksiyasının istifadəyə verilməsi nəzərdə tutulur.

## Türkiyədə ali məktəblərə qəbul qaydaları dəyişdirilib




Türkiyə Respublikasında ali məktəblərə qəbul imtahanlarının forması dəyişdirilib. Yeni sistemin tətbiqi 2018/2019-cu tədris ili üçün nəzərdə tutulub. AZƏRTAC xəbər verir ki, Türkiyə Ali Təhsil Təşkilatının sədr+i Yekta Saraç ictimaiyyətə bununla bağlı açıqlama verib. Onun sözlərinə görə, qəbul olunan yeni sistem imtahan prosesinin daha sadə və abituriyentlər üçün anlaşılan şəkildə qurulub. Bundan sonra əsasən riyaziyyat və türk dilindən biliklərini sınayan abituriyentlər bir ay müddətində imtahanların cavabını öyrənə biləcəklər.

# Ekspert: "Yaqland erməni lobbisinin korrupsiya tələsinə düşərək onların iş icraçısına çevrilib"

***"Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) "Azərbaycanda demokratik təsisatların vəziyyəti" hesabatı adı altında ölkəmizə qarşı aparılan çirkin kampaniya sübut edir ki, Avropa Şurasının baş katibi Turbyern Yaqland erməni lobbisinin alətlisına çevrilərək, onlardan aldığı davamlı rüşvətlər hesabına dövlətimiz əleyhinə iş aparmaqdadır". SİA-nın məlumatına görə, bu fikirləri trend-ə siyasi ekspert Bəhruz Quliyev deyib.***



O bildirib ki, Azərbaycana qarşı qərəzli münasibət AŞ PA-nın son payız sessiyasında da özünü göstərdi: "AŞ PA deputatları zaman-zaman müxtəlif tribunalarda, mediada Azərbaycanla münasibətdə dialoq tərəfdarı olduqlarını desələr də, AŞ-nin baş katibi Turbyern Yaqlandın ölkəmizə qarşı aşkar antipatiyası həmin fikirləri tamamilə alt-üst edir. Bu mövqeni AŞPA-nın payız sessiyasında da gördük. Hətta bundan əvvəl Yaqland bir az da irəli gedərək, açıq ermənipərəst avropalı həyasızlığı sərgiləyərək "Azərbaycanı mütləq cəzalandırmaq gərəkdir" deməşdi. Bütün bunlar həmin qurumların dialoq tərəfdarı olması barədə bəyanatlarının qeyri-səmimi olduğunu göstərir. Sözügedən qətnamələr də buna sübutdur. Ümumiyyətlə, Turbyern Yaqland gələcək siyasi karyerası barədə narahatlıq keçirməlidir, çünki erməni lobbisinin əsas silahı olan korrupsiya tələsinə düşərək onların iş icraçısına çevrilib".

B.Quliyev qeyd edib ki, digər dövlətlərin AŞPA qarşısında yerinə yetirmədikləri öhdəliklər qala-qala, nədənsə müstəqil və demokratik dəyərlərə sadiq olan Azərbaycan hakimiyyəti hədəfə alınır: "AŞPA bu suallara cavab versin ki, nəyə görə Fransa, İtaliya, Rumıniya, Portuqaliya, Polşa və daha 12 ölkədə son illərdə Avropa İnsan Hüquqları Məhkəməsinin 10 000 qərarı icra olunmayıb? Ən nəhayət, işğalçı siyasət yürüdən, terrorizmi və s. cinayətkarlıq üsullarını dövlət siyasətinə çevirən Ermənistan AŞPA-nın və Avropa Məhkəməsinin qərarlarına, qətnamələrinə əməl etmirsə, hansı səbəbdən bu ölkənin AŞ-dan uzaqlaşdırılması ilə bağlı məsələlər qaldırılmır? Niyə Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, eləcə də torpaqlarımızı işğal etməsi, 1 milyondan çox soydaşımızın hüquqlarının pozulması faktları qarşılığında bu ölkəyə qarşı sanksiyalar, qətnamələr qəbul olunmur? Yaqland buyursun, bu suallara cavablandırsın və sonra Azərbaycana qarşı qərəzli, şantajçı kampaniya aparsın".

Ekspert vurğulayıb ki, əslində Azərbaycan Avropa Şurasında qalıbqalmaması ilə bağlı qərar qəbul etməli və AŞPA da həmin qərara müvafiq düşünməlidir ki, bu qurum etibarlı tərəfdaş və regional təhlükəsizlikdə önəmli rol oynayan Azərbaycanı itirdiyi halda hansı problemlərlə qarşı-qarşıya qalacaq: "Artıq bu məqam yetişib. Təəssüf ki, AŞPA kimi mühüm siyasi qurumda Yaqland və onun kimi səviyyəsiz, siyasi savadları olmayan deputatlar normal Avropa meyarlarını erməni lobbisinin maraqlarına qurban verməklə məşğul olurlar. Nəticədə isə özlərini çətin vəziyyətdə qoyurlar".

Qeyd edək ki, oktyabrın 11-də AŞ PA-nın payız sessiyasında "Azərbaycanda demokratik təsisatların vəziyyəti" və "Azərbaycanın Avropa Şurasında sədrliyi: insan hüquqlarına əməl edilməsi sahəsində atılacaq növbəti addımların vəziyyətinə dair" qətnamələri qəbul edilib.

# Sevinc Fətəliyeva: Xocalı hadisələrinə vaxtında hüquqi qiymət verilsəydi, bu gün İŞİD kimi terror qrupu da olmazdı

İnsanlığa qarşı cinayətlər tarixboyu baş verib və təəssüflər olsun bu gündə baş verir. Hər müharibənin və münaqişənin öz dəhşətli itkilərlə dolu tarixi var. Azərbaycan da belə faciəvi tarix yaşayıb.




Bu fikri AŞPA-da "İŞİD tərəfindən həyata keçirilmiş insanlıq əleyhinə cinayətlərin, yaxud mümkün soyqırımlarının təhqiqatı və cəzalandırılması" adlı qətnamə layihəsinin müzakirəsi zamanı Milli Məclisin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva söyləyib.

Deputat bildirib ki, yüzlərlə dinc sakinin qəddarlıqla öldürülməsi Azərbaycan ərazisində ermənilərin törədikləri ən qanlı cinayətlərdəndir. Ötən əsrin sonlarında 613 günahsiz insan məhz azərbaycanlı olduqları üçün amansızlıqla qətlə yetirilib. Ermənilər tərəfindən törədilmiş qırğın, insanların işgəncələrlə öldürülməsi, cəsədləri üzərində təhqiramiz həqarətlər edilməsi beynəlxalq media tərəfindən sənədləşib. Bəlkə də Xocalı hadisələrinə vaxtında düzgün hüquqi qiymət verilsəydi, dünya ictimaiyyəti siyasi məsələlərlə yanaşı, insanlıq məsələlərinə də kifayət qədər diqqət yetirsəydi, onda cinayətkar olduğunu etiraf edən Ermənistan prezidenti vaxtında cəzalandırılardı və bu gün İŞİD kimi terror qrupu olmazdı.

"Hər gün İŞİD tərəfindən çəkilmiş və media vasitəsilə yayımlanan videolara artıq alışmışıq. Bu videolarda qətllərin yeni formaları, qatil qismində kiçik uşaqların çıxış etməsini, onların əsgər kimi fəaliyyət göstərməsini görürük. İŞİD qadınlara və uşaqlara qarşı dəhşətli zorakılıq aktları tətbiq edərək, özünü İslam təşkilatı kimi təqdim edir. Lakin onların fəaliyyəti heç də əsl İslama aid deyil. S.Fətəliyeva vurğulayıb ki, dünya ictimaiyyəti bu hadisələrə lazımi qiymət vermir. Bu gün dünya ictimaiyyəti daha çox hərbi məsələlərlə -hücumlarla, hava bombardmanları ilə, partlayışlarla maraqlanır, ancaq qadınlara və uşaqlara qarşı qəddar zorakılıq, onların istismarı, qula çevrilməsi yalnız müzakirə olunub qınanır.

"Baş verənlərə susmamalıyıq, dərhal reaksiya verib ciddi addımlar atmalıyıq. Əks halda, soyqırımlar, qadın və uşaqların müharibə silahı kimi istifadə olunması müharibənin tərkib hissəsinə çevriləcək və bunun qarşısını heç bir qanun, heç bir konvensiya ala bilməyəcək", -deyə Milli Məclisin deputatı diqqətə çatdırıb.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Strasburq***

# Pentaqon nümayəndəsi: ABŞ terrorizmlə mübarizədə Azərbaycanı vacib tərəfdaş hesab edir



Amerika Birləşmiş Ştatları-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi yollarını müzakirə etmək üçün Azərbaycanda səfərdəyəm. ABŞ terrorizmlə mübarizədə Azərbaycanı vacib tərəfdaş hesab edir. AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ müdafiə nazirinin köməkçisinin müavini vəzifəsini icra edən xanım Laura Kuper jurnalistlərə müsahibəsində deyib.

"Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndiririk. Azərbaycan əsgərləri Əfqanıstanda sabitliyin və təhlükəsizliyin təminatına töhfə verir", - deyə xanım Kuper əlavə edib. Səfər çərçivəsində bir sıra görüşlər keçirdiyini deyən qonaq bu görüşlərdə ABŞ-ın Əfqanıstanda və Cənubi Asiyada sülhməramlıların yerləşdirilməsinə dair tətbiq etdiyi yeni yanaşma ilə bağlı məsələlərin müzakirə olunduğunu bildirib.

## Son dörd ayda Qobustan Milli Tarix-Bədii Qoruğunu 20 mindən çox turist ziyarət edib

Bu ilin iyun-sentyabr ayları ərzində Qobustan Milli Tarix-Bədii Qoruğunu 24 min 886 turist ziyarət edib. Qoruğun əməkdaşı Rəhman Abdullayev AZƏRTAC-a bildirib ki, ziyarət edənlərin 16 min 502-si xarici ölkə vətəndaşlarıdır. Onun sözlərinə görə, qoruğu ziyarət edənlər arasında Rusiya, Almaniya, İngiltərə, Pakistan, İran və Ərəb ölkələrindən olan turistlər üstünlük təşkil edib.



# Rövnəq Abdullayev: Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda 550 milyon tondan çox neft ehtiyatı var



Hazırda Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarında və "Günəşli" yatağının dərinsulu hissəsində 550 milyon tondan çox neft ehtiyatı var. Bu ehtiyatların artması ehtimalı var. AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 12-də Bakı öz işinə başlayan Beynəlxalq Neft Sammitində SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib. O bildirib ki, "Şahdəniz-1" yatağından illik 9 milyard kubmetr təbii qaz hasil edilir. "Şahdəniz-2" yatağı istifadəyə verildikdən sonra əlavə 16 milyard kubmetr qaz çıxarılacaq. Bu həcmin 6 milyard kubmetri Türkiyə bazarına, 10 milyard kubmetri isə Avropa bazarına çatdırılacaq.

# Vergilər Nazirliyi İkinci Şopinq Festivalına tam hazırdır

Bakıda İkinci Şopinq Festivalının keçirilməsi üçün Vergilər Nazirliyi bütün qüvvəsini səfərbər edəcək. Budəfəki festival keçəndəfəki festivaldan fərqli olacaq. AZƏRTAC xəbər verir ki, bu fikri İkinci Şopinq Festivalına həsr edilmiş mətbuat konfransında vergilər nazirinin müavini Sahib Ələkbərov deyib. Nazir müavini bildirib ki, bu festivalın təşkili üçün Vergilər Nazirliyi müvafiq iş rejimində çalışacaq. Nazirliyin 30 əməkdaşı iki növbədə işləyəcək. Bir sözlə, Vergilər Nazirliyi operativ olaraq festivala tam hazırdır. Diqqətə çatdırılıb ki, budəfəki festivala artıq iki bank - AzərTürk Bank və Azərbaycan Beynəlxalq Bank xidmətlərini təklif edib.

# Noyabrın sonunda "Astara-Astara" yeni dəmir yolu xətti ilə yük qatarlarının hərəkətinə başlanacaq



Noyabrın sonunda "Astara (Azərbaycan)-Astara (İran)" yeni dəmir yolu xətti ilə yük qatarlarının hərəkətinə başlanılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən Beynəlxalq Neft Sammitində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib. O qeyd edib ki, "Astara (Azərbaycan)-Astara (İran)" yeni dəmir yolu xətti üzrə Azərbaycanda tikinti işləri yekunlaşıb. Astara çayı üzərində dəmir yolu körpüsünün inşası başa çatdırılıb. İran ərazisində tikinti işləri isə davam etdirilir.

# Ölkə üzrə pambıq tədarükü 80 min tonu ötüb

Oktyabrın 12-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 82 min 294,75 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən bir gündə 5346,99 ton pambıq tədarük olunub.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 oktyabr 2017-ci il

# "Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır"

## *Bu mövzuda "Səs" qəzetinin və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə dəyirmi masa keçirildi*




**(Əvvəli ötən sayımızda)**

"Səs" qəzetinin redaksiyasında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar olaraq "Səs" qəzetinin və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə "Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Musa Quliyev, YAP Qadınlar Şurasının sədri, BSU-nun rektoru Nurlana Əliyeva, YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, eləcə də, tələbə-gənclər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Dəyirmi masada Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyasının 25 illik şərəfli və qürurverici fəaliyyəti ilə bağlı "SƏS" TV-nin hazırladığı "Xalq və dövlətçilik uğrunda 25 il" filmi nümayiş olundu.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan ictimai-siyasi vəziyyətinin şərtləndirdiyi zərurətdən yaranan Yeni Azərbaycan Partiyasının tarixi dövrünə nəzər saldı: "Məlum olduğu kimi, Azərbaycanın çox ağır dövründə - 1992-ci il noyabrın 21-i Yeni Azərbaycan Partiyasının təsis olunduğu gündür. 25 il əvvəl Azərbaycanda yaranmış ağır durum yeni siyasi təşkilatın yaranma zərurətini meydana gətirdi. YAP qısa vaxtda ictimai-siyasi proseslərə ciddi təsir etməsi baxımından, özünü ifadə edə bilən təşkilata çevrildi. YAP daşıdığı azərbaycançılıq ideyasını cəmiyyətdə təsbit edə bildi və öz üzərinə götürdüyü amalları və ümidləri doğrultdaraq Azərbaycan vətəndaşları Ulu Öndər Heydər Əliyevdən və Onun yaratdığı partiyadan gözlədikləri nə varsa, hər birini həyata keçirə bildi".

Bugünkü dəyirmi masa iştirakçılarının əksəriyyətinin həmin dövrün ictimai-siyasi iqlimini görən və bu proseslərdə iştirak edən nümayəndələr olduğunu diqqətə çatdıran B.Quliyev iştirakçıları Ulu Öndər Heydər Əliyevin ölkənin çətin anlarında atdığı addımları, qərarları və Yeni Azərbaycan Partiyasının yaradıcısı kimi fəaliyyəti, eləcə də, YAP-ın keçdiyi şərəfli və uğurlu yol ətrafında fikirlərini bölüşməyi bildirdi. Onu da qeyd etdi ki, bu cür tədbirlərin təşkili respublikamız üçün çox əhəmiyyətlidir. Yaşanılmış tarixi məqamların gənclərə təqdim olunması vacibdir.

### YAP HƏYATIMIZA YENİ SİYASİ MƏDƏNİYYƏT GƏTİRDİ, SİYASİ TƏFƏKKÜR GƏTİRDİ VƏ SİYASİ MÜBARİZƏNİ

### KÜÇƏ VƏ MEYDAN DAVASINDAN SİYASİ SİVİL HÜQUQİ MÜSTƏVİYƏ KEÇİRDİ

**Musa Quliyev:**

- Bu gün bizə təqdim olunan filmdə Ulu Öndər Heydər Əliyevin söylədiyi dəyərli fikri, ilk olaraq, vurğulamaq istərdim. Ulu Öndər Heydər Əliyev deyir ki, bu partiyaya hər kəs öz könlü ilə, öz vicdanı ilə və qəlbinin səsi ilə gəlir. Bu, siyasi baxımdan, böyük məna kəsb edir. Yeni Azərbaycan Partiyası demokratik partiyadır ki, insanlar öz istəyi ilə axışıb gələrək üzv olurlar. Təklif, təsir və zor ilə bu partiya sıralarına üzv edilmirlər. YAP Azərbaycan tarixində müstəqil yaradılan ən güclü partiyadır və siyasi həyatımıza yeni bir siyasi mədəniyyət gətirdi, siyasi təfəkkür gətirdi və siyasi mübarizəni küçə və meydan davasından siyasi sivil hüquqi müstəviyə keçirdi. YAP-ın yaradılması Azərbaycanın sivil demokratik hüquqi dövlətə çevrilməsinin əsas siyasi fundamentlərindən biri oldu. Azərbaycan ərazi coğrafiyasında bütün təbəqələrdən olan insanlar bu partiyaya axışmağa başladılar.

Bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın və regionun ən nüfuzlu partiyasına çevrilib. YAP 25 illik tarixi dövrdə mübarizələrdən qalib çıxıb. Bələdiyyə, parlament və prezident seçkilərində qalib gəlib. Çünki xalqla partiya arasında birlik var. Xalq partiyanın Liderinin, Sədrinin siyasi dəstixəttinə inanır və səsini də ona verir. Bildiyiniz kimi, partiya çətin bir dövrdə iqtidar partiyasına çevrildi və həmin illərdə Azərbaycanın dövlət büdcəsi cəmi 250 milyon dollar idi. Bu günlərdə Azərbaycan Prezidenti Cənab İlham Əliyev elan etdi ki, Azərbaycanın milli valyuta ehtiyatı 45 milyard dollara yaxındır. Keçdiyimiz 25 ildə böyük uğurlara nail olmuşuq. Mən deyərdim ki, Yeni Azərbaycan Partiyası millətə və dövlətə, digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də uğurlar gətirdi. Azərbaycan dünyanın kosmik ölkəsinə çevrildi. İki kosmik peykimiz kosmosda var və bu ildə 3-cü süni peykimizi kosmosa çıxaracağıq ki, oradan da ölkəmizə milyonlarla dollar gəlir gətiriləcək.

Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır.

Ulu Öndər Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru sayılan "Əsrin müqaviləsi"nin imzalanmasından 23 il ötür. 1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin müqaviləsi" kimi təşəkkül tapan neft müqaviləsi Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdəndir. Bu müqavilə müasir Azərbaycanın inkişaf perspektivləri baxımından, o cümlədən, iqtisadiyyatın dirçəldilməsi və şaxələndirilməsi prosesində olduqca mühüm rola malikdir. Tarixi müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi. Ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı. "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

"Əsrin müqaviləsi"nin imzalanması və uğurla həyata keçirilməsi istiqamətində görülmüş işlər nəticəsində, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəldi. İlkin neftin hasil olunması Azərbaycanı dünyanın neft ixrac edən ölkəsinə çevirdi. Bu günlərdə isə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı. Bu, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövrün başlanması kimi qiymətləndirilib. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək.

Azərbaycan Respublikası Konstitusiyası çərçivəsində öz Proqram və Nizamnaməsinə uyğun fəaliyyət göstərən YAP 25 il ərzində hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirməyə müvəffəq oldu. Azərbaycan bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Bəli, ölkə-

# “Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır”

## Bu mövzuda “Səs” qəzetinin və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə dəyirmi masa keçirildi




mizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir.

Gənclərə tövsiyəmiz odur ki, üçrəngli Azərbaycan bayrağını daim yüksəklikdə saxlasınlar. Bu bayraq Azərbaycan gənclərinə bir əmanətdir.

**BƏHRUZ QULİYEV:**

- Nurlana xanım, Azərbaycan qadını bütün zamanlarda ölkənin ictimai-siyasi həyatında rol oynayıb. Bu gün də belədir. YAP-ın həyatında qadınların rolu və bu partiyaya üz tutmalarını necə qiymətləndirirsiniz?

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN QADINININ CƏMİYYƏTDƏKİ ROLUNA VERDİYİ YÜKSƏK DƏYƏR ÖLKƏDƏ QADIN FƏALLIĞI ƏNƏNƏLƏRİ TARİXİNƏ YENİ SALNAMƏLƏR YAZDI

**NURLANA ƏLİYEVA:**

- Bu gün doğma yurdumuzda Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə bağlı tədbirlər təşkil olunur. Mən Yeni Azərbaycan Partiyası ilə Azərbaycan dövlətinin siyasətini ölkəmizin gələcəyi uğrunda mübarizə aparan qoşa qanad hesab edirəm. Partiya çətin bir zamanda yaradıldı. Həmin dövrdə Azərbaycan ağır duruma düşmüşdü, buna görə də, ölkə siyasi və iqtisadi böhran keçirirdi. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Yeni Azərbaycan Partiyası Heydər Əliyev kimi böyük bir dühanın yaratdığı cəsarətin, hünərin sivil mübarizənin xalqın taleyini həll etməyə qadir gücün partiyası kimi yarandı.

Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra qadınlarımız Onun milli inkişaf strategiyasının fəal dəstəkçiləri oldular. 1995-ci ildə Ulu Öndərin tövsiyəsi ilə Yeni Azərbaycan Partiyasının mərkəzi və yerli təşkilatlarının tərkibində qadınlar şuralarının yaradılması böyük ictimai dəstəklə müşayiət olunurdu. Heydər Əliyevin siyasi ideyalarının arxasınca gedən Azərbaycan qadınlarının qabaqcıl üzvləri belə bir təşəbbüsü yaxından dəstəkləyir, bu şuranın işində fəal iştirak etmək üçün dəstə-dəstə Yeni Azərbaycan Partiyasının sıralarına gəlirdilər. Azərbaycan qadınlarının tarixdə ilk dəfə bu qədər böyük mütəşəkkilliklə bu prosesə qoşulmaları onların Ümummilli Liderin həyata keçirdiyi müdrik siyasətə sonsuz inamlarının ifadəsi idi. Bu qadınların öz övladlarının xoşbəxt bir cəmiyyətdə yaşamaq inamından irəli gəlirdi. Bu qadınlar başa düşürdülər ki, Heydər Əliyevin yaratdığı partiyanın idarə etdiyi cəmiyyətdə onların övladları xoşbəxt ola bilər. Bu ideya qadınlarımızı partiya sıralarına cəsarətlə gətirdi və partiyanın sıralarında qadınlarımız 50,3 % təmsil olunur. Bu, bizi çox fərəhləndirir və Azərbaycan qadınları bütün seçkilərdə - prezident, parlament, bələdiyyə seçkilərində çox fəal iştirak edirlər.




Ümummilli Lider Heydər Əliyevin Azərbaycan qadınının cəmiyyətdəki roluna verdiyi yüksək dəyər ölkədə qadın fəallığı ənənələri tarixinə yeni salnamələr yazdı.

Bu gün Ulu Öndər Heydər Əliyev siyasəti Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan qadını Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə övladlarının parlaq gələcəyini, özünün, doğmalarının stabil bir cəmiyyətdə güvənli, təhlükəsiz həyatını, həmçinin, sosial rifah halının davamlı surətdə yaxşılaşmasını görür. Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan qadını ilə bağlı olan problemlər dövlətin prioritet məsələlərindən ən ümdəsinə çevrildi, qadınların problemləri dövlət rəhbərliyinin ən yüksək diqqət və qayğısı ilə əhatə olundu.

Bunun bariz nümunəsi bu gün Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadınının layiq olduğu ən yüksək ictimai məqama, mənəvi zirvəyə yüksəlməsidir. Mehriban xanım Əliyeva, bu mənada, Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir.

Bu gün mədəniyyətlər arasında dialoq məkanına çevrilmiş Azərbaycanda təşkil edilən beynəlxalq tədbirlər bütün dünyada bu yöndə aparılan maarifləndirmə ilə multikulturalizmi, savadlılığı, sivilizasiyalar arasında qarşılıqlı təması dünyanı bir çox bəlalardan, konfliktlərdən və toqquşmalardan hifz edə biləcək dəyər kimi diqqətə çatdırır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan mədəniyyəti incilərinin, səsimizin, sözümüzün bütün dünyada təbliği, Azərbaycan dövlətinin dəstəyi ilə ölkə daxilində və ölkədən xaricdə keçirilən tədbirlər və reallaşdırılan layihələr xüsusi əhəmiyyət daşıyır. Belə bir mütərəqqi anası olan Azərbaycan anasının müharibələrə meyli heç zaman ola bilməz. O, bütün müharibələrə, qanlara-qadalara yox deyən insandır. Bəli, bu gün dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətlər sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində YAP-ın xidmətləri danılmazdır. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da ölkənin qüdrətinin artması, iqtisadiyyatının yüksəlməsi və insanların rifah halının yaxşılaşması kimi şərəfli bir vəzifəni öz çiyinləri üzərində daşımaq iqtidarındadır.

(Ardı var)

*Nəzakət ƏLƏDDİNQIZI*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 oktyabr 2017-ci il

# Azərbaycan müasir iqtisadi inkişaf yolu ilə irəliləyir

*YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Aydın müəllim, 2017-ci ilin üçüncü rübü də başa çatdı. Ötən dövrdə ölkə iqtisadiyyatının inkişafını necə səciyyələndirmək mümkündür?***

- Cari ilin ötən 9 ayı ərzində milli iqtisadiyyatın inkişafında pozitiv dinamika və makroiqtisadi sabitlyin təmin olunmasında müsbət trendlər yaranıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, iqtisadiyyatın strukturunda keyfiyyət dəyişikliklərinin baş verməsinə, sənayeləşmənin geniş vüsət almasına, iqtisadi sabitliyə öz töhfəsini verir. 2017-ci ilin üçüncü rübündə ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunub.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin üçüncü rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan qlobal böhran şəraitində stabil inkişafını qoruyub saxlayıb, neft gəlirlərindəki azalmalara baxmayaraq şaxələndirilmiş iqtisadiyyatın digər istehsal sahələrində artım hesabına gəlirlərimizin həcmi artıb. Həmin dövrdə qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb, qeyri-neft sektorunun sənaye hissəsində artım 3,1 faiz, kənd təsərrüfatında 2,8 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 7 faiz artıb.

***- Qeyri-neft sektorunun inkişaf etdirilməsi milli inkişafa hansı təsirlərini göstərməkdədir?***

- Hazırda Azərbaycan iqtisadiyyatı neftdən asılı olmadan inkişaf edir. İqtisadiyyatın əsas inkişaf indikatoru olan qeyri-neft sektorunda 2,5 faiz artıb. Bu tendensiya 2 il əvvəl Prezident İlham Əliyevin uzaqgörənliklə "Azərbaycan iqtisadiyyatı neftdən asılı olmadan inkişaf edəcək" fikrinin tam özünü təsdiq etdiyini göstərir. Azərbaycan iqtisadiyyatının çoxşaxəli olması və və neftdən kənar sahələrin artımı iqtisadi dinamikanın dayanıqlılığını təmin edib. Azərbaycanın dövlət başçısının mükəmməl iqtisadi modeli sayəsində neftin ucuzlaşmasının ölkə iqtisadiyyatına təsirləri zəif hiss olunur. Ölkədə rəqabət mühitinin təmin olunması, ixracın təşviqi və ixracın stimullaşdırılması Azərbaycanın tədiyyə balansında müsbət dinamikanın yaranmasına səbəb olub. Azərbaycanın ixrac potensialı gücləndib, ixrac 40 faiz artıb, ixracda qeyri-neft məhsullarının çəkisi əhəmiyyətli dərəcədə yüksəlib. Bu siyasətin mühüm nəticəsi olaraq idxal xeyli azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyiyi möhkəmləndirib, maliyyə-valyuta bazarında sabitliyin gücləmnəsi milli valyutamızın məzənnəsinin möhkəmlənməsinə səbəb olmaqdadır.

Ölkədə iqtisadi islahatlarla bağlı ciddi addımlar atılıb, sahibkarlara hərtərəfli şərait yaradılıb, Strateji Yol xəritələrinin inkişafı təmin edilib, investisiya təşviqi mexanizmi işə düşüb. İndiyədək 200-dən artıq investisiya təşviqi sənədi verilib ki, bunun da nəticəsində Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb edilib. Bununla yanaşı, ölkədə ixracın təşviqi mexanizmi işə düşüb.



***- Azərbaycanın maliyyə sabitliyinin təmin olunması sahəsində hansı təsirli tədbirlər görülməkdədir?***

- 2017-ci ildə hökumərin başlıca vəzifəsi makroiqtisadi siyasətin çevikliyinin təmin edilməsi, yeni şəraitdə formalaşan risklərə qarşı adekvat tədbirlərin görülməsi, makroiqtisadi siyasətin koordinasiyasının daha da gücləndirilməsi, formalaşan rəqabət üstünlüklərindən iqtisadi artımın daha da sürətləndirilməsi üçün nəzərdə tutulan struktur islahatlarının həyata keçirilməsini davam etdirməkdən ibarət olub. Ötən dövr ərzində ölkəmizin inkiaşının ana sütununa çevrilən və makroiqtisadi tərəqqini səciyyələndirən əsas faktorlardan biri güclü maliyyə sabitliyi və dayanıqlılığının təmin edilməsi olub. Ötən dövr ərzində makroiqtisadi siyasətin başlıca istiqamətləri, o cümlədən pul-məzənnə siyasəti ilə fiskal siyasətin effektiv taktiki əlaqələndirilməsi təmin edilib, valyuta-maliyyə sektorunda dinamika davam edib, aylıq inflyasiya tempi yanvar ayından sonra düşməyə başlamış, manatın məzənnəsinin ucuzlaşması dayanmış və hətta manat müəyyən qədər möhkəmlənmiş, iqtisadi artım bərpa olunmuşdur. Əlverişli neft qiymətləri və məzənnə şəraitində tədiyə balansı tarazlaşmağa başlayıb, ölkəmizin strateji valyuta ehtiyatları artıb. Doqquz ayda Azərbaycanın strateji valyuta ehtiyatları 4,5 milyard dollar həcmində artaraq 42 milyard dollar səviyyəsinə çatıb.

Milli valyutanın məzənnəsinin sabitliyi və xarici valyutalarla nisbətdə məzənnəsinin möhkəmlənməsi ilə bağlı monetar siyasət müsbət təsirini göstərib, pul təklifinin həcminin optimallaşdırılmasını nəzərdə tutan pul proqramı razılaşdırılaraq icraya götürülüb. Hökumət tərəfindən sterilizasiya əməliyyatlarının aktivləşdirilməsi ilə izafi pul kütləsinin valyuta bazarına və məzənnəyə mənfi təsirlərinin neytrallaşdırılması sabitləşdirici rol oynayıb. Büdcə-borc siyasəti çərçivəsinin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlər isə ortamüddətli dövrdə büdcə dayanıqlığının gücləndirilməsi üçün əlverişli makrofiskal baza yaradıb. Valyuta bazarına ciddi mənfi təsir göstərən borc öhdəliklərinin makroiqtisadi çərçivədən (daxili valyuta bazarından) kənarlaşdırılaraq ələhiddə rejimdə həll edilməsi, valyuta rejiminin təkmilləşdirilməsi, gömrük-tarif siyasəti sahəsində idxalın məhdudlaşdırılması, habelə ixracın stimullaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər valyuta bazarına stabilləşdirici təsir edib. Bu tendensiaya ölkəmizin güclü iqtisadi təhlükəsizlik yastığının olmasını göstərir və qlobal böhran şəraitində ən sabit və dayanıqlı maliyyə siyasəti yürütdüyünü təsdiqləyir. Mövcud situasiya manatın tədiyyə aləti kimi möhkəmlənməsinə, idxal və ixracatçıalar üçün əlverişli biznesin təşkilinə, daxili bazarda qiymətlərin sabitləşməsinə güclü zəmin yaradır.

***- Aydın müəllim, regionların inkişafı ilə əlaqədar yürüdülən siyasət hansı dəyişikliklərə səbəb olmaqdadır?***

- "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası ölkə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin güclənməsinə, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına, ümumilikdə bölgələrin hərtərəfli inkişafı sahəsində əhəmiyyətli dəyişikliklərə səbəb olub. İqtisadi inkişafının dayanaqlığının təmin olunması, tarazlı və hərtərəfli inkişafını təmin edən strateji proqramlar öz uğurlu nəticələrini göstərməkdədir. Ötən 9 ayda 226 min yeni iş yerinin yaradılıb. Ölkədə əsas infrastruktur, o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələrin uğurla icra olunub. yeni məktəblər, tibb ocaqları tikilib və əsaslı təmir edilib, məcburi köçkünlərin sosial məsələlərinin həlli, onların mənzillə təmin edilmələri məsələsi də diqqət mərkəzində olub.

***- 2017-ci ildə Azərbaycanın beynəlxalq reytinqinin artırılması sahəsində hansı işlər görülüb?***

- İlk növbədə onu qeyd etmək lazımdır ki, iqtisadiyyatın strukturunda müasir trendlərə əsaslanan innovativ islahatların aparılması son 2 ildə daha geniş xarakter alıb və 2017-ci ildə bu istiqamətdə işlər keyfiyyət baxımından bir qədər də irəliyə gedib. Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyini daha da yaxşılaşdırmaq üçün son bir ildə zəruri işlər görülüb. Sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən olunub və həmin hədəflərə çatmaq üçün ən yüksək beynəlxalq standartlara uyğun elektron dövlət xidmətləri göstərilməsi tədbirlər həyata keçirilib. Bu tədbirlərin nəticəsi kimi son bir ildə qanunvericilik və inzibatçılıq təkmilləşdirilib, biznes və rəqabət mühiti daha da yaxşılaşdırılıb. Yürüdülən iqtisadi siyasət bir sıra mühüm nəticələrin əldə olunmasına imkan verib. 2017-ci ildə sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyi təmin edilib, rəqabət prinsiplərinə əsaslanan biznes mühiti yaradılıb, ölkənin investisiya cəlbediciliyinin artırılıb. Bu faktorlar beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşmasına səbəb olub. Dünya İqtisadi Forumu dünya ölkələrinin rəqabətqabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 2017-2018" hesabatında Azərbaycanın 140 ölkə arasında 2 pillə irəliləyərək 35-ci yerdə qərarlaşması məhs həmin islahatların mühüm nəticəsi hesab olunur. Ölkəmiz 37-ci pillədən 35-ə qalxıb və MDB məkanında liderliyini qoruyur.

Onu da qeyd edim ki, rəqabət reytinqinin artmasının islahatların səmərəliliyini göstərməklə yanaşı, ölkəmiz üçün geniş imkanlar yaradır. Azərbaycan iqtisadiyyatına investisiya yatırmaq niyyətində olan istənilən investor üçün rəqabətlilik hesabatı əhəmiyyətli rol oynayır. Hansısa ölkəyə sərmayə qoymaq istəyən xarici şirkət və investor ilk növbədə, həmin ölkənin beynəlxalq reytinq əmsalına diqqət yetirir. Bu mənada ölkəmizin yüksək reytinqinin olması investisiya cəlbediciliyinin fonunda xarici sərmayə qoyuluşlarının artmasına öz mühüm təsirini göstərəcək. Eyni zamanda, milli sahibkarlarımızın və şirkətlərimizin dünya bazarlarına çıxışını asanlaşdıracaq.

## Xoşbəxt Yusifzadə: Azərbaycanda 2 milyardıncı ton neft noyabrın ilk həftəsində hasil olunacaq



Azərbaycanda 2 milyardıncı ton neft noyabrın ilk həftəsində hasil ediləcək. Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib. O qeyd edib ki, noyabrın 5-də bu münasibətlə xüsusi mərasim keçiriləcək.

Xatırladaq ki, milyardıncı ton Azərbaycan nefti 1971-ci il martın 28-də çıxarılıb. Neftin ilk milyard tonunu hasil etməkdən ötrü Azərbaycan neftçiləri 1 əsrlik yol keçiblər. Lakin neftin ikinci milyard tonunu çıxarmaq üçün isə qəhrəman neftçilərimizə yarım əsrdən də az bir vaxt - 46 il bəs edib.

## Azərbaycan və Belarus parlamentləri arasında Bəyannamə imzalanıb



Oktyarın 12-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Belarus Respublika Şurasının sədri Mixail Myasnikoviç və Belarus parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko Azərbaycan nümayəndə heyətinin Minskə rəsmi səfərinin yekununa dair Bəyannamə imzalayıblar.

AZƏRTAC xəbər verir ki, bəyannamədə Azərbaycan və Belarus parlamentlərinin iki ölkə arasında iqtisadi-ticari, mədəni, elmi, təhsil sahələrində əlaqələrin inkişafına töhfələri qeyd olunub. İmzalanma mərasimində Milli Məclisin komitə sədrləri Ziyad Səmədzadə, Fuad Muradov, deputatlardan Xanlar Fətiyev, Ülviyyə Ağayeva, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov və digərləri iştirak ediblər.

# YAP QƏLƏBƏLƏR PARTİYASIDIR





Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlərin keçirilməsi davam edir. Rayon təşkilatının növbəti tədbirləri təhsil şöbəsi, mədəniyyət və turizm idarəsi, uşaq musiqi məktəbi və Zülfüqaroğlu MMC ərazi ilk partiya təşkilatlarında keçirilib.

Tədbirlərdə, öncə, Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi və keşməkeşli yolu əks etdirən videoroliklər nümayiş etdirilib.

Təhsil Şöbəsi ərazi ilk partiya təşkilatının sədri İntiqam Nuriyev, YAP fəallarından İmran Məmmədov, Qaragöz Heydərli, Təbrizə Əhmədova, Dilguşə Hüseynova, Uşaq Musiqi Məktəbi ərazi ilk partiya təşkilatının sədri Emin Haqverdiyev, YAP fəallarından Rəfayıl Həsənov, Sevil Teymurova, Mədəniyyət və Turizm İdarəsi ərazi ilk partiya təşkilatının sədri Reyhan İsmayılova, YAP fəallarından Telman Məmmədov, İlduzə Qurbanova, Gündüz Mürsəlov, Şəlalə Əliyeva, Zülfüqaroğlu ərazi ilk partiya təşkilatının sədri Bəxtiyar Mehtiyev, YAP fəallarından Azər Şirinov, Mübariz İbrahimov çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyasının yaranma tarixi şərəfli və qürurlu tarixdir. Təhsil Şöbəsi ərazi ilk partiya təşkilatlarında keçirilən tədbirdə çıxış edən YAP rayon təşkilatının sədri Ramiz Şabanov bildirib ki, Yeni Azərbaycan Partiyası bu gün Möhtərəm Prezidentimiz, partiyamızın Sədri Cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizlə bərabər və hərtərəfli inkişaf mərhələsini yaşayır. "Partiyamızın sıraları Ümummilli Lider, müasir Azərbaycan dövlətinin qurucusu, əbədiyaşar, tarixi şəxsiyyət Heydər Əliyev ideyaları ilə silahlanmış, dövlətə, Vətənə və xalqa sadiq insanlar hesabına genişlənməkdədir"-deyə natiq bildirib. O, eyni zamanda, bildirib ki, partiyanın sıralarına qoşulanların böyük əksəriyyətinin gənclərdən ibarət olması, Yeni Azərbaycan Partiyasının zamanın, dövrün tələblərinə uyğun olaraq yenilənməsi və doğma Azərbaycanımızın gələcəkdə də etibarlı əllərdə olacağından xəbər verir.

**R.HÜSEYNOVA**

# Yeni Azərbaycan Partiyası xalqın istək və arzusundan yaranan partiyadır

*YAP Biləsuvar rayon təşkilatı 1 saylı şəhər ərazi ilk partiya təşkilatında tədbir keçirilib*





Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Biləsuvar rayon təşkilatında silsilə tədbirlərin keçirilməsi davam etdirilir. Dünən, bu tədbirlərin davamı olaraq, YAP Biləsuvar rayon təşkilatı 1 saylı şəhər ərazi ilk partiya təşkilatında "Yeni Azərbaycan Partiyası qələbələr Partiyasıdır" mövzusunda tədbir keçirildi. Tədbirdə YAP Biləsuvar rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əjdər Niftiyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, 25 il ərzində əldə etdiyi qələbələrdən söhbət açdı. O, Yeni Azərbaycan Partiyasının yaranmasında Ulu Öndər Heydər Əliyevin böyük rolundan danışdı. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının regionda ən qüdrətli partiya olduğunu və beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu qeyd etdi. Tədbirdə 1 saylı şəhər ərazi ilk partiya təşkilatının sədri Zakir Qaraşov, Biləsuvar rayon Peşə Liseyinin direktoru, partiya üzvü Rabil Şahbazov və ərazi ilk partiya təşkilatının üzvü Afət Səfərov çıxış edərək, Yeni Azərbaycan Partiyasının qələbələr partiyası olduğundan, partiyanın yaranma tarixindən və respublikamızda gedən iqtisadi və sosial inkişafdan danışaraq, respublikamız Prezidentimiz İlham Əliyev Cənablarının rəhbərliyi ilə daha sürətlə inkişaf etdiyini qeyd etdilər. Onlar əminliklə bildirdilər ki, bütün siyasi proseslərdə böyük qələbələr qazanan Yeni Azərbaycan Partiyası 2018-ci ildə keçiriləcək prezident seçkilərində də böyük qələbə qazanacaqdır.

**RƏFİQƏ**

# YAP Nəsimi rayon təşkilatında veteran gənclərlə görüş keçirilib





Dünən YAP Nəsimi rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbirlər planı çərçivəsində veteran gənclərlə görüş keçirilib.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı partiyanın 25 illik fəaliyyətindən danışarıq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və iradəsi ilə çətin ictimai-siyasi mühitdə yaradılan Yeni Azərbaycan Partiyası bu gün, nəinki ölkə daxilində, hətta regionda lider siyasi qüvvəyə çevrilib. Dahi Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar ətrafında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə son illər böyük inkişaf yolu keçib. Hazırda üzvlərinin sayı 700 mini ötən partiya milli siyasi iradəni və xalqımızın maraqlarını ifadə edən güclü və vahid siyasi qüvvədir. Ümumxalq partiyası olan YAP-ın yaradılmasının 25 illik yubileyi ölkəmizdə yüksək səviyyədə qeyd olunur.

M.İbrahimqızı bildirib ki, bu gün mövcud iqtidarın monolit birliyi nəticəsində Ümummilli Liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir. Natiq çıxışında Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın güclü və qüdrətli dövlətə çevrildiyini vurğulayıb.

Sonra M.İbrahimqızı veteran gəncləri tədbir iştirakçılarına təqdim edərək, onların partiyanın inkişafı yolunda göstərdikləri xidmətlərdən danışıb.

Sonda fəal gənclərə sertifikat və hədiyyələr təqdim edilib.

**ZÜMRÜD**

# "Heydər Əliyev siyasəti Azərbaycan təhsilinin uğur strategiyasıdır "





Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatı, rayon Təhsil Şöbəsinin ilk partiya təşkilatı yanında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı "Heydər Əliyev siyasəti-Azərbaycan təhsilinin uğur strategiyasıdır" mövzusunda geniş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan rayon Təhsil Şöbəsinin müdiri Elnur İsmayılov Yeni Azərbaycan Partiyasının ötən 25 il ərzində, ümumxalq partiyasına çevrildiyini, bütün bu müddət ərzində Azərbaycanın inkişafı naminə çalışdığını vurğulayıb. O, tarixə qısa ekskurs edərək, partiyanın yaranması tarixindən danışıb və qeyd edib ki, 1990-cı ilin əvvəllərində Azərbaycan dərin böhran vəziyyətində idi və bu böhrandan xalqı və dövləti, məhz Ulu Öndər Heydər Əliyev çıxartdı: "Xalqın ziyalılarının müraciəti ilə 1992-ci il 21 noyabr tarixində Azərbaycanın taleyində çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyası yarandı".

YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov çıxış edərək bildirdi ki, tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın və dövlətin inkişaf yolunu müəyyənləşdirir: "Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi və dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir". S.Şükürov bildirib ki, Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu və əhəmiyyətini həmişə nəzərə alaraq, bu amili yüksək dəyərləndirib: "Dahi Rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Tədbir iştirakçılarından Aynur Mahmudova, Şəmsiyyə Cəlilova, Akif Qəribov da çıxış edərək bildirdilər ki, Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri müstəqil Azərbaycanda təhsil siyasətinin geniş üfüqlərindən soraq verir. "Azərbaycanda, o cümlədən, rayonumuzda təhsilin yüksəlişi, uğurları "Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar təliminin, möhtəşəm siyasi kursunun təntənəsidir"-deyə natiqlər çıxışlarında vurğulayıblar.

Sonda tədbir iştirakçıları bir daha Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibəti ilə təbrik edildi, onlara möhkəm can sağlığı və işlərində ugurlar arzulandı.

**Rövşən RƏSULOV**

# AŞPA Azərbaycana qarşı qərəz və anti-Azərbaycan mövqeyi sərgiləyir

## *Aydın Mirzəzadə: "AŞPA-nın qəbul etdiyi qətnamə qərəzlidir və Azərbaycana siyasi təzyiq göstərmək məqsədi daşıyır"*

***Başda elə AŞPA-nın baş katibi Turbyern Yaqland olmaqla, qurumun Azərbaycana qarşı qərəzi və anti-Azərbaycan mövqeyi son vaxtlar daha aqressiv xarakter almaqdadır. Bunu ona görə aqressiv qiymətləndirmək lazımdır ki, sanki bu qurumun Azərbaycandan başqa dünyada heç bir ölkənin durumu ilə əlaqədar müzakirələr aparmaq və münasibət bildirmək missiyası yoxdur.***

Yaxud sanki bu qurumun bütün qərarlarına digər dünya dövlətləri tərəfindən operativ şəkildə reaksiya verilir və müvafiq tədbirlər həyata keçirilir. Halbuki 10 minə yaxın qərarı icrasız qalmış bu qurum, nədənsə digər dövlətlərin saygısızlığına, ələlxüsus, separatçı Ermənistanın barəsində qəbul olunmuş qətnamələr 25 ildir etinasızlıq göstərməsinə hələ də ciddi reaksiya vermir. Amma anti-Azərbaycan dairələrin subyektiv fikirlərinə əsaslanaraq, hazırlanan sənədləri qəbul etməklə, AŞPA bu dəfə də Azərbaycana qarşı qərəzli mövqeyini ortaya oydu. Onsuz da qurumun bu vaxtadək ölkəmizə qarşı ədalətsiz yanaşması dünya ictimaiyyəti üçün sirr deyildi və hətta Yaqland baş katib olduqdan sonra buna ədalətsiz yanaşma yox, təzyiq demək olar.

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə "Səs" qəzetinə açıqlamasında AŞPA-nın qəbul etdiyi qətnamənin qərəzli olduğunu və Azərbaycana siyasi təzyiq göstərmək məqsədi daşıdığını bildirdi: "Avropa Şurasının bütün üzvləri yarım il müddətinə Nazirlər Kabinetinə rəhbərlik edirlər. Nədənsə, heç bir ölkə haqqında deyil, ancaq Azərbaycana dair xüsusi bir qətmanə qəbul etdilər. Avropa Məhkəməsinin 10 mindən çox yerinə yetirilməmiş qətnaməsi var və bundan başqa bir sıra ölkələr özlərinin milli hüquq sistemini beynlxalq hüquq sistemindən üstün hesab etdikləri barəsində qərarları var. Amma Azərbaycana qarşı bir qətnamənin yerinə yetirilməsində ləngiməyə görə, çox aqressiv bir münasibət bəslənir. Sadəcə olaraq, Avropada bəzi anti-Azərbaycan dairələri bu təşkilatdan Azərbaycana siyasi təzyiq göstərmək üçün istifadə edirlər. Azərbaycanla bu təşkilatın münasibətlərini pozmağa çalışırlar. Əlbəttə ki, bu, yolverilməz bir haldır. Cənab Prezidentimiz Avropa İttifaqının bir qrup səfirini qəbul edərkən bildirdiyi kimi, "Azərbaycan Avropa Şurasından çıxarsa, bundan nə qazanar, nə də itirər". Mən hesab edirəm ki, Avropa Şurası rəhbərliyi bu bəyanatdan özləri üçün bir nəticə çıxarmalı idi. Azərbaycan bugünkü uğurları ilə, ilk növbədə, özünün demokratiyaya, insan hüquqlarına, iqtisadi inkişaf məsələlərinə bağlılığına görə uğur qazanıb.



### Avropa Şurası fundamental dəyərlərə açıq hörmətsizlik göstərir

A.Mirzəzadənin sözlərinə görə, Avropa Şurası, bir qayda olaraq, Azərbaycanın gördüyü işlərə göz yummağa ölkəmizlə bağlı qərəzli fikirlər yaratmağa çalışır: "Belə çıxır ki, Avropa Şurası rəhbərliyinin Azərbaycanda gedən islahatlarla bağlı, ümumiyyətlə heç bir xəbəri yoxdur. Mən hesab edirəm ki, bu qətnamələrə qarşı Azərbaycan özünün prinsipial mövqeyini ortaya qoymalıdır və Avropa Şurasının aqressiv məmurları Azərbaycana hörmətlə yanaşmağı və Azərbaycanın suveren bir dövlət olduğunu unutmamalıdırlar".

Maraqlıdır, ikili standartlar siyasəti yürüdən bu qurum, hər dəfə ədalətsiz mövqedən çıxış etdikdə, separatçı Ermənistanın yürütdüyü terrorçuluq siyasətinə, bunun acı nəticələrinə göz yumduğu zaman hec öz imici barəsində düşünmürmü? "REAL" hərəkatının lideri İlqar Məmmədov barəsində qərarın icrası BMT qətnamələrinin icrasından daha təsirlidir, yoxsa daha böyük etinasızlıq sayıla bilər? Bəlkə Avropada siyasi məqsədlərinə görə həbs olunan yoxdur? Kataloniya referendumları ilə əlaqədar İspaniyada küçələrə axışan insanlara qarşı zorakılıqdan AŞPA xəbərsizdir, yoxsa? İ.Məmmədov məsələsi atların tapdağı altında qalmış, itlərin hücumuna məruz qalmış, rezin güllə atəşinə tutularaq yaralanan İspaniyanın 900 nəfərdən çox vətəndaşına qarşı haqsızlıqdan daha da ağırmı gəldi, bu quruma? Ermənistanda 2008-ci il prezident seçkilərindəki güllələrandan, 2011-ci il müxalifət nümayəndələrinin kütləvi həbslərindən bir vətəndaşın, "REAL" hərəkatının bir nümayəndəsinin həbsi daha antidemokratikdirmi? Yaxud 25 ildir bir milyona yaxın qaçqın və köçkünlərin, soyqırımına məruz qalmış insanların taleyi, əzəli və əbədi Azərbaycan torpağı olan Dağlıq Qarabağın işğalı bu təşkilatı heç maraqlandırmırmı? Bu torpaqları işğal edən, əsrin ən böyük faciəsi hesab olunan Xocalı soyqırımını törədən terrorçulara münasibətdə niyə demokratik prinsplər, insan hüquqlarının pozulması barədə müzakirələr açılmır? Uzun illərdir evsiz-eşiksiz qalmış, yurd-yuvalarını itirmiş insanların hüquqlarını qorumaq nə üçün yada düşmür? Milyonlarla insan hüquqlarının pozulmasına etinasızlıq nümayiş etdirən təşkilatın bir insanın hüquqlarının pozulması barədə "narahatçılığı" heç də inandırıcı deyil və bu, əslində, İ.Məmmədovun timsalında siyasi məhbus adlandırdıqları bir insanın hüququnun mudafiəsindən çox, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdən və prinsipial mövqeyi ilə seçilən Azərbaycana olan qərəzi kimi təsir bağışlayır.

Avropa Şurası və onun baş katibi Yaqland, ilk növbədə, onun fərqində olmalıdırlar ki, qurumun artıq beynəlxalq ictimaiyyət arasında nüfuzu enməkdədir. Nüfüzsuz bir təşkilata çevrilməkdə olan qurumun tərkibində qalmaq Azərbaycana bu vaxta qədər nə verib ki, bundan sonra nə verə bilə? Azərbaycan özünə qarşı bu qədər qərəzli münasibət sərgiləyən, Avropanın fundamental dəyərlərinə bu dərəcədə açıq hörmətsizlik nümayiş etdirən bir qurumun tərkibində qalmaqda heç də israrlı deyil.

***İnam HACIYEV***



# Nizami rayonunda YAP-ın 25-ci ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib

***Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə, yaşıllaşdırmaya mühüm önəm verilib, bu məqsədlə geniş və çoxşaxəli proqramlar qəbul olunub və irimiqyaslı tədbirlər həyata keçirilib. Ulu Öndərin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir və öz bəhrəsini verməkdədir.***





Dövlət başçısının respublikada ekoloji tarazlığın qorunması ilə bağlı verdiyi müvafiq tapşırıqlara uyğun olaraq, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə Nizami rayon icra hakimiyyətinin və YAP Nizami rayon təşkilatının təşkilatçılığı ilə Texnika və Texnologiyalar üzrə Bakı Dövlət-Peşə Təhsili Mərkəzinin ərazisində ağacəkmə aksiyası keçirilib. Aksiyada Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov, YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva və rayon rəhbərliyi iştirak edib.

Belə ki, rayonun idarə, müəssisə və təşkilatlarının, ictimaiyyətin nümayəndələrinin, könüllü sakinlərin, həmçinin, gənclərin yüksək fəallıqla qoşulduğu genişmiqyaslı iməcilikdə ətraf ərazi tullantılardan təmizlənib, mövcud olan yaşıllığa aqrotexniki qulluq edilib və ərazidə 150-dən çox müxtəlif növ ağac və kollar əkilib.

Məqsəd ərazidəki yaşıllıq zolağını genişləndirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etmək və ümumilikdə, dövlət başçısının rəhbərliyi ilə aparılan ardıcıl islahatlar nəticəsində gündəngünə gözəlləşən paytaxtımızın istər Avropa, istərsə də dünyanın ekoloji cəhətdən təmiz olan ən gözəl şəhərləri sırasında qərarlaşması istiqamətində görülən işlərə dəstək verməkdir.

Ağacəkmə aksiyasından sonra Texnika və Texnologiyalar üzrə Bakı Dövlət-Peşə Təhsili Mərkəzinin tələbələri ilə görüş olub.

***RƏFİQƏ***

# YAP Yasamal rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyilə əlaqədar tədbirlər davam edir

***Dünən YAP Yasamal rayon təşkilatının Tbilisi prospekti-3166 ünvanında yerləşən ərazi ilk partiya təşkilatının Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yibileyi münaibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Tədbiri giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Suad Paşayev bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır. Müstəqilliyimizin ilk illərində tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası qısa zamanda iqtidar partiyasına çevrilib.

Tədbirdə çıxış edən rayon təşkilatının sədri Tağı Əhmədov bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi qətiyyəti və iradəsi ilə yaradılan və bu gün də istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi respublikamızın bütün bölgələrində geniş qeyd olunur: "Ötən 25 il ərzində, YAP böyük bir inkişaf yolu keçib və bu gün Yeni Azərbaycan Partiyası ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə inkişafının yeni mərhələsini yaşayır. YAP Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayır".

Ərazi ilk partiya təşkilatının idarə heyətinin üzvü Bəylər Qurbanov və ilk partiya təşkilatının sədr müavini Emin Rzayev çıxışlarında Yeni Azərbaycan Partiyaının ölkənin ictimai-siyasi həyatında oynadığı roldan danışıblar.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasına qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

***NƏZAKƏT***

## Ötən ay Azərbaycanın dövlət sərhədini pozan 53 nəfər saxlanılıb



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən sentyabr ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, qaçaqmalçılığa, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə uğurla davam etdirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 53 nəfər saxlanılıb. Onların 19-u Azərbaycan, 9-u Özbəkistan, 2-si Rusiya, 16-sı İran, ikisi Tacikistan, 1-i Əfqanıstan, biri Cənubi Afrika Respublikası, biri Suriya, 1-i Misir, 1-i Konqo vətəndaşıdır. Sərhəd rejim qaydalarını pozarkən 998 halda 1118 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq mühafizə orqanları tərəfindən axtarışda olan 445 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib. Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 28 kiloqram 747,1 qram narkotik maddə aşkar edilərək götürülüb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlərlə ümumi dəyəri təqribən 1 milyon 851 min manat olan qaçaqmal, o cümlədən 1 pnevmatik tapança, 2 siqnal tapançası, 2 mina , 18 min 40 ABŞ dolları, 2 milyon rus rublu, 6 milyon İran tüməni, 6 kiloqram mis, 5092 qutu pirotexniki vasitə, 4877 qutu siqaret, 292 mobil telefon, 2476 ədəd müxtəlif növ dərman preparatları, spirtli içkilər, sənaye və kənd təsərrüfatı malları saxlanılıb. Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

## Əcnəbilər BSU-nun auditoriyalarında

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən Beynəlxalq Humanitar Forumda təhsilimizin uğurları və qarşıda duran vəzifələr barədə fikirlərini yekunlaşdıraraq bildirmişdi: "Ölkəmizdə təhsilin keyfiyyətinin artırılması üçün ardıcıl islahatlar aparılır. Hesab edirəm ki, biz yaxın gələcəkdə bu islahatların gözəl nəticələrini görəcəyik. Azərbaycan dövləti təhsilin inkişaf etmiş dünyanın təhsilinə inteqrasiyası üçün əlindən gələni edir. Gənclər dövlət vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə oxumağa göndərilir, dünyanın nüfuzlu ali məktəblərindən tanınmış alim və professorlar Azərbaycanın ali məktəblərinə mühazirələr oxumağa gəlirlər. Biz bu inteqrasiya prosesini gələcəkdə də davam etdirməliyik".***



Dövlət başçısının göstərişlərini rəhbər tutan Bakı Slavyan Universiteti dünyanın onlarla nüfuzlu ali məktəbləri ilə sıx əlaqələr qurmuş, həmin ali məktəblərlə təhsilin, demək olar ki, bütün sahələrində əməkdaşlıq etməkdədir. Bu gün Şərqi Avropanın əksər ölkələrində və keçmiş MDB məkanında Azərbaycan dilinin, mədəniyyətinin, elminin, təhsilinin və iqtisadi yüksəlişinin təbliği sahəsində BSU əvəzsiz xidmətlər göstərməkdədir.

Beynəlxalq əlaqələrini ildən-ilə genişləndirən universitet, sözün həqiqi mənasında, bu gün ölkəmizin dünyaya inteqrasiyasında önəmli bir körpü rolunu oynayır. Universitetdə müxtəlif ölkələrin mədəniyyətini, dilini, tarixini, etnoqrafiyasını, ədəbiyyatını və s. öyrənən on bir mərkəz fəaliyyət göstərir ki, həmin mərkəzlərdə, müvafiq olaraq, dövlət başçıları, səfirlər, tanınmış ictimai və siyasi xadimlər azərbaycanlı tələbə-gənclərlə görüş keçirmiş, onlara öz tövsiyələrini vermiş, xatirə kitablarına ürək sözlərini yazmışlar. Bu mənada, BSU bir diplomatik korpus rolunu oynayır desək, səhv etmərik.



Universitetin gələcək planlarında məzunların xarici şirkətlərdə işlə təmin edilməsi layihəsi də vardır. Bununla bağlı bir sıra ölkələrin səfirlikləri ilə danışıqlar aparılır və müqavilələr imzalanmasına hazırlıq görülür. BSU-nun uğurlarından biri də hər il tələbə-müəllim mübadiləsini həyata keçirməsi, azərbaycanlı gənclərin xaricdə təhsilinə və xarici ölkə tələbələrinin BSU-da təhsillərini davam etdirmələrinə şərait yaradılmasıdır. Bununla yanaşı, universitet müxtəlif beynəlxalq layihələr hesabına nüfuzlu əcnəbi alim və professorları BSU-ya dəvət edir, onların tələbələrimiz qarşısında mühazirələrini təşkil edir. Hazırda üç əcnəbi müəllimin universitet tələbələri qarşısında mühazirələr oxumağa dəvət olunması da bu tədbirlər sırasındadır. Polşa ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi ilə "Adam Marşalek" adına məşhur Nəşriyyat Holdinqilə BSU arasında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Marşalek və Nikolay Kopernik adına Universitetin keçmiş rektoru professor Andjey Rasminskinin təşəbbüsü ilə hər il BSU-nun beş tələbəsi Polşada pulsuz magistr təhsili ala bilər.

Yoanna Marşalek azərbaycanlı tələbələrlə polyak dilində danışır. Onların hazırlığı əcnəbi professoru razı salır. Həmin universitetdən gələn digər müəllim Donuta Pleçka da Bakıya - Azərbaycana, sözün həqiqi mənasında, vurulduğunu deyir. Bakını dünyanın ən müasir şəhərlərindən hesab edən xanım-professor xalqımızın tolerantlıq və multikultural dəyərlərə tanındığını, dünyaya bir model kimi çıxdığını bildirir. O, Avropanın özündə dini, irqi, etnik və mədəni problemlərin yaşandığı halda, Azərbaycanda belə bir halla qarşılaşmadığını bildirir. O, mühazirə oxuduğu tələbələrdən bir çoxunun etnik-mədəni kimliyi ilə maraqlandığını qeyd edir: "Onların arasında çoxlu azlıqların nümayəndəsi var, amma görürəm ki, etnikmədəni fərqlər tələbələr arasında, onların münasibətlərində heç bir problem yaratmır. Bu, həqiqətən, dünya üçün çox yaxşı örnək sayılar biləcək bir haldır".

***ZÜMRÜD***

## DAŞKƏSƏN ŞƏHƏRİNDƏ ABADLIQ-BƏRPA İŞLƏRİ HƏYAT KEÇİRİLİB



***Ölkə Prezidenti İlham Əliyevin Sədrliyi ilə oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. Dövlət başçısının qarşıda duran vəzifələrlə bağlı nitqindən irəli gələn məsələlərlə əlaqədar olaraq Daşkəsən rayonunda sosial-iqtisadi, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi məqsədilə Daşkəsən rayon icra hakimiyyətində qərargah yaradılmış və bir çox işlər görülməyə başlanmışdır.***



Cəbhə bölgəsində yerləşən, strateji əhəmiyyətli Daşkəsən rayonunun mürəkkəb coğrafi relyefi, soyuq, sərt iqlim şəraiti olduğu üçün son günlər rayon ərazisində baş vermiş intensiv dolu, leysan yağışları, dağlarda qar və küləklə müşayiət olunan əlverişsiz təbiət hadisələri nəticəsində sel suları Daşkəsən şəhərindəki su tutucu, ötürücü quyuları, kanalları yararsız hala salmış, şəhərin yolları, yol kənarı istinad divarlarının bir çox hissələri uçaraq dağılmış, beton bordürlərin, səkilərin tomet üzlük daşları, yaşayış binalarının fasadları, ümumiyyətlə şəhərin infrastrukturu tam yararsız vəziyyətə düşərək şəhər sakinlərinin yaşayış şəraitini çətinləşdirmişdir.



Son günlər yaranmış hazırkı real vəziyyətlə bağlı Daşkəsən rayon icra hakimiyyəti öz daxili imkanları hesabına şəhərdə abadlıq-quruculuq və ən əsası şəhərin dağılmış yollarının yeni asfalt örtüyü salınmaqla təmir-bərpa işlərini həyata keçirir.

Bu gün, oktyabrın 12-də əlverişsiz hava şəraitinin olmasına, yağışın yağmasına baxmayaraq, maşın-mexanizmlər çətinliklə də olsa, Daşkəsən şəhərinin küçələrində yeni asfalt örtüyünün salınmasına başlamışdır. Asfaltlaşma, o cümlədən, təbiət hadisələrinin doğurduğu təbii fəlakətlər nəticəsində Daşkəsən şəhərinin ərazisinə dəymiş ziyanların aradan qaldırılması məqsədilə aparılan təmir-bərpa işləri böyük ruh yüksəkliyi ilə davam etdirilir, qısa hazırlıq işləri də görülür.

2018-ci ilin mart ayında Daşkəsən şəhərinin salınmasının 70 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlərin təntənəli və yüksək səviyyədə təşkil edilməsi üçün də hazırlıq işləri aparılır.

Müstəqil dövlətimizin banisi və qurucusu Heydər Əliyevin "Yol iqtisadiyyatdır, mədəniyyətdir, bir sözlə, həyat deməkdir" tarixi kəlamı, devizi ilə və buna bariz nümunə olaraq ölkəmizdə uğurlu islahatların aparılması, xüsusilə, avtomobil yollarının çəkilişinə bu gün Daşkəsən şəhərində yolların təmir-bərpasının özü də bir nümunədir.

Çox hörmətli Prezidentimiz Cənab İlham Əliyevin oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən sonra da biz daşkəsənlilər əmin edirik ki, rayon icra hakimiyyəti olaraq rayon sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi və müstəqil Azərbaycan Respublikasının bütün sahələrində olan inkişafına və sabitliyinin qorunmasına xidmət edərək rayonumuzun çətin, mürəkkəb coğrafi relyefi və sərt iqlim şəraitinə baxmayaraq, ölkə Rəhbərinin tapşırıq və tövsiyələrini, qarşıda duran vəzifələri daim rayonumuzda yerinə yetirəcək, bu yolda var-qüvvəmizi əsirgəməyəcəyik.

Bu gün Daşkəsən rayonunda görülən işlərə görə, bütün daşkəsənlilər adından göstərdiyi ali diqqət və qayğıya görə bir daha da dövlət başçımıza öz dərin minnətdarlığımızı və xoş arzularımızı bildiririk.

***RƏFİQƏ***

SİYASİ RAKURS

# Rəsul Quliyev Əli Kərimlinin kabusuna çevrilib

## "Milli Şura" tərəfdarları eks-spikerin cinahına keçəcəklərini gizlətmirlər



***ABŞ-da mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyevin gələn il ölkədə keçiriləsi nəzərdə tutulan prezident seçkilərinə namizəd kimi qatılmağa hazırlaşması barədə sosial şəbəkədəki fikirləri yayıldıqdan sonra, azsaylı tərəfdarlarının toplaşdığı "Gələcək Azərbaycan Partiyası"nda müəyyən canlanma müşahidə olunmağa başlayıb. Hətta "GAP"çılar oktyabr ayının sonunda sabiq spikerin namizədliyini elan edəcəklərini də sosial şəbəkələrdəki hesablarında yazmaqdadırlar. Bununla, R.Quliyev ötən parlament və prezident seçkilərində olduğu kimi, növbəti dəfə "gəlirəm" mesajını verərək, ənənəvi müxalifətdə varlığını göstərməyə cəhd edib.***

### Ənənəvi düşərgə kəskin qarşıdurmalar həddindədir

Maraqlı məqamlardan biri də budur ki, R.Quliyevin "gəlirəm" mesajı müxalifət düşərgəsində xüsusilə, "Milli Şura" rəhbərliyində qıcıq yaratmağa başlayıb. Misal üçün, sabiq spikerin Azərbaycandakı 3-4 nəfərdən ibarət tərəfdarları iddia edirlər ki, hətta ölkə müxalifətinin bir sıra nümayəndələri gizli, ya da açıq şəkildə onun namizədliyini dəstəkləyəcəklərini bildirirlər. Belə ki, adının açıqlanmasını istəməyən və AXCP üzvü olan mənbə bizə açıqlamasında bildirib ki, hazırda "Milli Şura"nın mitinqlərinin fiaskoyla nəticələnməsi bir sıra Əli Kərimli - Cəmil Həsənli tərəfdarlarını düşünməyə vadar edib. Onlar yaxın zamanlarda Ə.Kərimlinin və ətrafının siyasi baxımdan heç nəyə nail ola bilmədiyini əsas gətirərək, R.Quliyevin tərəfdarları olacaqlarını bəyan edəcəklər. Məhz bu amil düşərgə daxilində ciddi qarşıdurmaların yaranacağına səbəb olacaq amil kimi nəzərə çarpır.

### Rəsul Quliyev kisəsinin ağzını açıb və...

Digər tərəfdən, R.Quliyevə yaxınlığı ilə tanınan Azərbaycan Demokrat Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası və digər siyasi qurumların adları da var ki, onlar ya açıq, ya da qeyri vəziyyətdə eks-spikerə dəstək verəcəklərini bildirirlər. O cümlədən, bununla bağlı bütün ənənəvi müxalifət partiyalarına "GAP" adından müraciət də edilib və R.Quliyevin "vahid namizəd"liyi təklifinin dəstəklənməsi istənilib. Daha dəqiqi isə, R.Quliyev bunun üçün kisəsinin ağzını açıb. Yəni bu faktor da "Milli Şura" və AXCP rəhbərliyinin təlaş keçirməsinə səbəb olmağa başlayıb. C.Həsənlinin "vahid namizəd" kimi irəli sürülməsi zamanı, R.Quliyevin də "vahid namizəd" kimi ortaya çıxması 2018-ci il seçkilərində ənənəvi müxalifətin, necə deyərlər, "kəllə-kəlləyə" gələcəyi il kimi "tarixə düşəcək".

### İbrahimbəyov ssenarisi təkrarlana bilərmi..?

Ancaq ortada digər maraqdoğurucu nüans da mövcuddur. Belə ki, ortada 2013-cü ildə baş verənlərə bənzəyən hal yaşana bilər ki, bu da eyni ilə Rüstəm İbrahimbəyovun ssenarisinə bənzəyir. Xatırladaq ki, 2013-cü ildə "müxalifətin birliyi" kimi yaradılmış "Milli Şura" Rusiyada yaşayan kinorejissor R.İbrahimbəyovun namizədliyini irəli sürmüşdü. Lakin həm Rusiya, həm də Azərbaycan vətəndaşlığı olan R.İbrahimbəyovun ölkəyə qayıdışı da, vətəndaşlıq problemi də onun üçün ciddi baryerlər yaratdı. Daha doğrusu, seçkilərə 2 aydan az vaxt qalmış məlum oldu ki, "Milli Şura"nın namizədi Rusiya vətəndaşlığından imtina etmək üçün bu ölkənin Miqrasiya Xidmətinə müraciət etməyib. Məlumdur ki, ikili vətəndaşlığı olan şəxs Azərbaycan qanunvericiliyinə görə, seçkilərdə iştirak edə bilməz. Bununla da, İbrahimbəyovun "vahid namizəd" statusu sonradan yedək "vahid namizəd" Cəmil Həsənliyə keçdi.

R.Quliyevin isə Azərbaycanda cinayət əməlləri var və o, ABŞ-da yaşadığı üçün hələ də qanun qarşısına çıxmayıb. Bu fakt isə Quliyevin Azərbaycana qayıtmasının qarşısına çıxan səddir. Yəni o, "gəlirəm" bəyanatlarını səsləndirməklə, sonda ABŞ-da qalmağa davam edəcək. Ancaq buna baxmayaraq, yəni gəlib-gəlməməsindən asılı olmayaraq, bu istiqamətdə fəaliyyətə keçməsi ənənəvi müxalifətdə çaşqınlıq yaradıb. Əbəs yerə deyil ki, yuxarıda da qeyd olunduğu kimi, "Milli Şura"nı dəstəkləyən bir sıra şəxslər eks-spikerin cinahına keçəcəklərini iddia edirlər. Təkcə bu amil 2018-ci ilin ənənəvi, radikal, yaxud da dağıdıcı müxalifətin kabus ili olaraq qiymətləndirilə bilər. Çünki həmin il köhnəlmiş və nimdaşlaşmış düşərgənin birdəfəlik sonu kimi də tarixə düşmək ehtimalını özündə kifayət qədər ehtiva etməkdədir.

***Rövşən RƏSULOV***

# Rüsvayçılıq "Milli Şura"nın həyat tərzinə çevrilib

## Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin normal məcraya düşdüyünü narahatlıqla qarşılayan qüvvələr var

***Sərbəst toplaşmaq azadlığı fundamental hüquqlardan biridir. Azərbaycanda vətəndaşların bu istiqamətdə öz hüquqlarından istifadə etmələri üçün heç bir problem yoxdur. Lakin "Milli Şura" deyilən qondarma qurum bundan əvvəl keçirdiyi mitinqlər və təyin etdiyi növbəti mitinqi ətrafında gedən müzakirələr səngimək bilmir. Azərbaycana qarşı kampaniya aparan qüvvələr hələ də utanıb, çəkinmədən ölkədə fundamental hüquq pozuntularının və ciddi problemlərin olduğunu iddia edirlər. Radikal qrupların ictimai dəstəyə malik olmadıqlarını nümayiş etdirən bu aksiyalarda ən ağlasığmaz və əsassız ittihamlar səsləndirən "Milli Şura" üzvlərinə, ağıllarına nə gəldi deyən bu insanlara isə "gözün üstə qaşın var" deyən olmadısa da, özlərini hüquqları pozulan vətəndaşlar kimi təqdim edənlərin bu fiaskodan sonra yenidən aksiya keçirməyə cəhd göstərmələrinin bir çox səbəbləri var.***

Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin normal məcraya düşdüyünü narahatlıqla qarşılayan qüvvələr, o cümlədən, ermənipərəst dairələr belə bir aksiyanın keçirilməsi sifarişini veriblər və çox güman ki, aksiya çərçivəsində müəyyən təxribatlar törətməklə, ölkəmizə qarşı kampaniyanı davam etdirmək üçün tutarlı arqument əldə etmək istəyirlər. Bu amil Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində proseslərin intensivləşə biləcəyi ehtimalı ilə də bağlı ola bilər. Yəni Ermənistana qarşı sanksiyaların tətbiqinin zəruriliyi faktı ilə qarşı-qarşıya qalan qüvvələr prosesi ləngitmək üçün "Milli Şura"nın "xidmətindən" yararlanmağa çalışır. Beləliklə, "Milli Şura" Azərbaycana qarşı qarayaxma kampaniyasının davam etdiyi bir zamanda, yenidən aksiya keçirməyə cəhd göstərməklə, hansısa korporativ maraqlar əsasında öz xidmətini davam etdirir.




### "Milli Şura" adlanan qurumun keçirdiyi aksiya mitinqdən daha çox, piket xarakteri daşıyırdı

AXCP sədri Əli Kərimli və onun azsaylı tərəfdarlarının guya minlərlə insanın iştirak etdiyi barədə sosial şəbəkələrdə şişirtdiyi, lakin rəsmi dövlət orqanlarının məlumatına görə, 1200-ə yaxın insanın toplandığı, "Milli Şura" adlanan qurumun keçirdiyi aksiya mitinqdən daha çox, piket xarakteri daşıyırdı. Cəmiyyətdə elə də ciddi rezonans doğurmayan, "Milli Şura"ya nifrət üzərində köklənmiş ictimai rəy formalaşdıran bu tədbiri elə də ciddi siyasi hadisə hesab etmək mümkün deyil. Çünki toplaşanların bir qisminin media təmsilçiləri və digər izləyicilərdən ibarət olduğunu nəzərə alsaq, həqiqətən də, "mitinq"də "Milli Şura" tərəfdarlarının rəsmi məlumatdakı statistik rəqəmdən də çox az olması qənaətinə gəlinir.

Lakin azsaylı mitinq iştirakçılarının "zəngin" tərkibi ilə bu aksiyaların keçirilməsi "zərurətinin" birdən-birə nədən bu qədər artması ilə bağlı müəmmalı suallar bu barədə düşünməyə vadar edir. Aydın olur ki, ölkədə seçki və referendum kimi siyasi aksiyaların olmadığı bir məqamda, mitinqlərin belə ardıcıl keçirilməsi "zərurəti" siyasi məsələlərlə yox, Ə. Kərimlinin şəxsi planları ilə bağlıdır. Müxtəlif xarici dairələrin təşəbbüsü ilə Azərbaycanda siyasi xaosun yaradılması məqsədilə ayrılan vəsaitlərin "yuyulması", mühacir biznesinin genişləndirilməsi bu planın tərkib hissəsidir. İştirakçıların çox hissəsinin radikal dindarlardan ibarət olması, şüarların bir çoxunun radikal məzmun təşkil etməsi, tədbirin sanki hansısa dini sektaya mənsub olması təəssüratı yaradır və bu, Ə.Kərimlinin öz siyasi məqsədləri naminə istənilən qüvvə və şəxslərlə əməkdaşlığa hazır olduğunu təsdiq edir.

### Faktlar Əli Kərimlinin satqın olduğunu təsdiq edir

Ardıcıl xarakter daşıyan mitinqlərinlə, ayrı-ayrı dövlətlərin kəşfiyyat orqanlarının hesablarına köçürdüyü pulları mənimsəməyə səy göstərənlərin çağırışlarına diqqət etdikdə, aydın olur ki, erməni lobbisinin və "Soros" Fondunun qaldırdığı məsələlər "Milli Şura"nın gündəliyinin qayəsini təşkil edir. Çünki onların vəsaitləri hesabına fəaliyyət göstərir, hətta şəxsi maraqlarını da təmin edirlər. Bu baxımdan, yalnız anti-Azərbaycan mövqeyindən çıxış etmələri təəccüb doğurmur. Əksinə, Azərbaycan əleyhinə iş aparan və bir mərkəzdən idarə olunan bu şura, ermənilərin əleyhinə bir dəfə də olsa bəyanat versəydi, bu, təəccüb doğurardı. Sosial bazası və elektoratı olmayan belə bir qurumun həm də Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələrə xidmət etməsi ilə xarakterizə olunan mitinqləri ictimaiyyət tərəfindən dəstək qazanmayacaq. Daha dəqiq desək, Azərbaycan xalqı tərəfindən nifrətlə qarşılanan bu fəaliyyətləri, artıq ictimaiyyətdə qıcıq yaradır.

Göründüyü kimi, AXCP sədri Ə. Kərimlinin mitinq ənənələri ictimai qınağa səbəb olub və artıq bu aksiyalara son qoymaq üçün ictimaiyyət tərəfindən adekvat tədbirlər planlaşdırılır. Çünki hətta müxalifət düşərgəsinin belə qatılmadığı, siyasi dividend kimi dəyərləndirdiyi bu aksiyaların sosial sifariş olmadığı və anti-Azərbaycan qüvvələrin maraqlarına xidmət etdiyi bəllidir.

***İnam HACIYEV***

# Ulu Öndər Heydər Əliyevin milli folklor musiqisinə göstərdiyi qayğı

***Dahi Öndər Heydər Əliyev aşıq musiqisinə Azərbaycan xalqının azadlıq idealının tərənnümçüsü kimi baxırdı. Ona görə də aşıq musiqisinə xüsusi diqqət yetirirdi.***

- Aşıqların yubileylərini keçirirdi;
- Onların xatirələrini əbədiləşdirirdi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə aşıq musiqisinin inkişafına yönəldilmiş mühüm qərarlar qəbul olunmuşdu. Azərbaycan KP MK bürosunun 1972-ci il 7 dekabr tarixli iclasında Aşıq Şəmşirin (Ş.Q.Qocayev) anadan olmasının 80 illiyi haqqında qərar qəbul edildi. Büro iclasının qərarı ilə o, hökumət mükafatına təqdim edildi. Ulu Öndər Heydər Əliyev Aşıq Şəmşirin vəfatından sonra da adının əbədiləşdirilməsi sahəsində ciddi tədbirlər həyata keçirdi. Bilavasitə, onun səyi ilə MK bürosu 1980-ci il 17 oktyabr tarixli iclasında Aşıq Şəmşirin adının əbədiləşdirilməsi haqqında qərar qəbul etdi. Mədəniyyət evlərinə, klublara və küçələrə onun adı verildi.

Azərbaycan aşıq sənətinin korifeylərindən biri olan Aşıq Ələsgər irsinin mühafizəsi və təbliğinə diqqət verilirdi. Azərbaycan KP MK bürosunun 1971-ci il 24 may tarixli iclasında Aşıq Ələsgərin anadan olmasının 150 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi. Yubiley tədbirinin vaxtı və tədbirlər kompleksi MK bürosunun 2 dekabr tarixli iclasında müəyyənləşdirildi və təsdiq olundu. Onun xatirəsini əbədiləşdirmək haqqında MK bürosu 1972-ci il 10 iyun tarixli iclasında aşıq musiqisi tarixində o vaxtadək görünməmiş mühüm əhəmiyyət daşıyan bir qərar qəbul etdi. Qərara uyğun olaraq yubiley tədbirləri keçirildi. Heydər Əliyev bu tədbirlərin respublika sərhədlərindən kənara çıxmasına çalışaraq, ona nail oldu. Aşıq Ələsgərin yubiley tədbirləri Moskvada da qeyd edildi. İttifaqlar Evinin Sütunlu Salonunda keçirilən bayram tədbirini açan SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi Mixail Lukon deyirdi: "... biz Azərbaycan poeziyasının milli ənənələrindən danışarkən, Aşıq Ələsgərin irsini nəzərdə tuturuq".

Aşıq Ələsgərin yubileyinin zirvə nöqtəsi həmin ilin iyun ayının 9-da Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilən tədbir oldu. Tədbirdə Heydər Əliyevin iştirak etməsi, Onun aşıq musiqisi irsinə qayğısını göstərirdi. Tədbirə ölkənin müxtəlif şəhərlərindən qonaqların qatılması Azərbaycan aşıq musiqisinin ölkə miqyasında tanıdılması istiqamətində əhəmiyyətli addım idi.

Heydər Əliyev Aşıq Alı irsinin təbliğinə də qayğı göstərirdi. 1981-ci il iyul ayının 21-də MK Bürosunun iclas qərarı ilə ustad aşığın anadan olmasının 180 illiyinin qeyd edilməsi haqqında qərar qəbul olundu. Yubiley tədbirləri böyük təntənə ilə keçirildi. Onun şeirlərinə ən gözəl mahnılar bəstələndi, mədəniyyət saraylarına, klublara və küçələrə adı verildi.

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan musiqisi yüksək inkişaf səviyyəsinə çataraq Sovet dövründə çiçəklənmə, intibah mərhələsini yaşadı. O, Azərbaycan bəstəkarlarına, müğənnilərinə qayğı göstərir, qurultaylarında iştirak edir, problemlərini operativ həll edir, yubileylərini keçirir, yüksək dövlət mükafatlarına təqdim edir, klassik Azərbaycan bəstəkar və musiqiçilərinin ev və xatirə muzeylərini yaradır, milli musiqiyə, muğama, folklor musiqisinə, bədii özfəaliyyət kollektivlərinin yaradılmasına, aşıq musiqisinin dirçəldilməsinə çalışır, məşhur aşıqların yubileylərini keçirir, xatirələrini əbədiləşdirir, musiqinin problemlərinə dair ictimai və ciddi elmi müzakirələr açdırır, gənc istedadların üzə çıxmasına qayğı göstərir və bu barədə mühüm qərarların qəbul edilməsinə nail olurdu. Sonralar Heydər Əliyev nitqlərinin birində deyirdi: "Əsrin əvvəllərindən bu günədək olan müddəti götürsək, görərik ki, həmin dövrdə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Tofiq Quliyev və Rauf Hacıyev kimi görkəmli bəstəkarlar yetişmişdir. Şərqdə ilk opera Üzeyir Hacıbəyovun dühası ilə yaranmışdır. Bir sözlə, Azərbaycanda professional musiqi mədəniyyəti təşəkkül tapmışdır. Demək istəyirəm ki, bu ictimai-siyasi quruluş, iqtisadi sistem xalqın mədəniyyətinə nəinki zərər vura bilməmiş, əksinə, bu sistemdə mədəniyyətimiz çox inkişaf etmiş və irəliləmişdir". M.Qasımlı yazır: "Bütün möhtəşəm fəaliyyəti ilə Heydər Əliyev Azərbaycan milli musiqisini, onun zəngin ənənələrini dirçəldir, bununla da xalqın milli ruhunu, özünüdərkini yüksəldirdi. Məhz bu qayğının nəticəsində onlarla istedadlı Azərbaycan gənci peşəkar musiqi aləminə qədəm qoyaraq respublika miqyasında tanınıb şöhrət qazanmışdı.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan muğamı, "Qarabağ şikəstəsi" Kremlin Qurultaylar Sarayında keçirilən ən yüksək məclislərdə ifa edilirdi.

Heydər Əliyev Azərbaycan muğam ifaçılığına xüsusi diqqət yetirərək qorunmasına, gənc ifaçıların yetişdirilməsinə qayğı göstərirdi. Gənc ifaçıların keçirilən festivallarının məqsədlərindən biri də, məhz bu idi. Onun göstərişi ilə respublika mətbuatında, radio və televiziyasında Azərbaycan muğamının nəzəri problemləri, müntəzəm olaraq geniş müzakirə edilir, seminar və konfranslar keçirilirdi.

Ulu Öndər Heydər Əliyev xalq musiqisini dirçəltmək və təbliğ etmək məqsədilə peşəkar musiqiçiləri bədii özfəaliyyət kollektivlərinin inkişafına yardım etməyə çağırırdı. Bu isə, Azərbaycanın bütün rayonlarında bədii özfəaliyyət kollektivlərinin yaradılmasına, xalq musiqisi və folklorun inkişafına, respublikada tanıdılmasına gətirib çıxarırdı. Məhz belə qayğı nəticəsində folklor musiqisi, nəinki Azərbaycanda və ölkədə, həmçinin, dünyada tanınırdı. Heydər Əliyev Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafına xüsusi diqqət yetirir, istedadlı uşaqların müsabiqəsinin keçirilməsi barədə göstərişlər verirdi. Bilavasitə, onun təşəbbüsü ilə 1977-ci ilin sentyabr ayında Azərbaycan KP MK "Respublikada musiqi ifaçılığı sənətinin vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi. Azərbaycan xalq musiqisinin inkişafında yeni mərhələnin əsasını qoyan bu qərar istedadlı ifaçıların üzə çıxarılmasında müstəsna rol oynadı. Heydər Əliyev həmin qərarın yalnız qəbul edilməsi ilə kifayətlənmədi. O, Azərbaycan xalqının qədim irsini, tarixi keçmişini özündə saxlayan, milli ruhunu qoruyan xalq musiqisini dirçəldir, təşviq edir, istedadlı xalq musiqisi ifaçılarının üzə çıxarılmasına nəzarət edir və onların konsertlərinə gedirdi. Belə möhtəşəm tədbirlərdən biri 1982-ci ilin iyun ayında Bakıda keçirildi.

Beləliklə, Azərbaycan incəsənəti sovet hakimiyyəti illərində, ilk dəfə olaraq, ən yüksək inkişaf mərhələsinə, məhz Heydər Əliyevin hakimiyyəti illərində, onun həyata keçirdiyi tədbirlər nəticəsində çatdı. 70-ci illər-80-ci illərin ortaları Sovet dövründə Azərbaycan incəsənətinin tərəqqisi illəridir. Heydər Əliyevin, bilavasitə səyləri və qayğısı nəticəsində Azərbaycan musiqisi, teatrı, kinosu, rəssamlığı, memarlığı, radio və teatrı inkişaf etdi. Həmin illərdə Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilir, aşıq musiqisinin inkişafına diqqət verilirdi. Bəstəkarların qurultaylarında iştirak edən Heydər Əliyev onların problemlərini yerindəcə həll edirdi.

Beləliklə, Azərbaycan incəsənəti sovet hakimiyyəti illərində, ilk dəfə olaraq, ən yüksək inkişaf mərhələsinə, məhz Heydər Əliyevin hakimiyyəti illərində, onun həyata keçirdiyi tədbirlər nəticəsində çatdı. 70-ci illər-80-ci illərin ortaları Sovet dövründə Azərbaycan incəsənətinin tərəqqisi illəridir. Heydər Əliyevin, bilavasitə səyləri və qayğısı nəticəsində Azərbaycan musiqisi, teatrı, kinosu, rəssamlığı, memarlığı, radio və teatrı inkişaf etdi. Həmin illərdə Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilir, aşıq musiqisinin inkişafına diqqət verilirdi. Bəstəkarların qurultaylarında iştirak edən Heydər Əliyev onların problemlərini yerindəcə həll edirdi.

**Vahid ÖMƏROV**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 oktyabr


## Dünyada 124 milyondan çox uşaq köklükdən əziyyət çəkir



Son qırx ildə dünyada köklükdən əziyyət çəkən uşaqların (5-19 yaş arası) sayı on dəfə artıb. AZƏRTAC mərkəzi qərargahı Cenevrədə yerləşən Dünya Səhiyyə Təşkilatına istinadla bildirir ki, 2016-cı ildə dünyada köklükdən əziyyət çəkən uşaqların sayı 124 milyon nəfər olub. Bu göstərici 1975-ci ildə 11 milyon nəfərə bərabər olub.

Beynəlxalq təşkilatın 11 oktyabr-Dünya Adipositas (köklük, şişmanlıq) Günü münasibətilə açıqladığı hesabatda 213 milyon uşağın çəkisinin isə norma göstəricilərindən yuxarı olduğu qeyd edilib. Dünya əhalisinin sayının artması müvafiq olaraq köklükdən əziyyət çəkən uşaqların sayının da artmasına gətirib çıxarıb. Buna baxmayaraq, təşkilatın ekspertləri faiz göstəricilərinin heç də ürəkaçan olmaması qənaətindədirlər. Belə ki, 1975-ci ildə uşaqların cəmi 1 faizi kök idisə, indi qızların təxminən 6, oğlanların isə təxminən 8 faizi şişmandır.

Hesabatda qeyri-sağlam qidaların (fast food) reklamı və uşaqlar arasında sevilməsi, sağlam qida məhsullarının qiymətinin baha olması, az hərəkət uşaqların köklüyə meyil etməsinin əsas səbəbləri kimi göstərilib. Təşkilatın hazırladığı hesabat dünyanın 200-dən çox ölkəsində aparılmış 2400-dən artıq populyasiya yönümlü tədqiqatlar əsasında tərtib olunub.

## Görmə qabiliyyətinin yaxşılaşdırılması

Dünyanın gözəlliklərinə tamaşa etmək və ondan zövq almaq böyük xoşbəxtlikdir. Göz nurunu itirənlər və görmə qabiliyyəti zəif olanlar həmin xoşbəxtlikdən məhrumdurlar. Ona görə də özünü dünyanın minbir gözəlliyindən məhrum etməmək üçün ən düzgün yol gözləri qorumaqdır.

AZƏRTAC xəbər verir ki, müasir dövrdə görmə zəifliyindən



əziyyət çəkməyənlər çox azdır. İstənilən sivil ölkənin 21 yaşdan yuxarı olan sakinlərinin hər onundan doqquzu həmin problemdən əziyyət çəkir. Aydın məsələdir ki, yaş artdıqca görmə zəifliyi daha da dərinləşir. Yaşı 40-ı ötənlər arasında isə görmə problemi olmayanlara ümumiyyətlə nadir hallarda rast gəlinir. Oftalmoloqlar görmə qabiliyyətini yaxşılaşdırmaq, görmə itiliyini artırmaq və göz əzələlərini möhkəmləndirmək üçün nəzərdə tutulan müalicəvi gimnastika və müxtəlif dərman vasitələri məsləhət görürlər.

Ahıl yaşlarda görmə qabiliyyətində yaranmış zəifliyi azaltmaq üçün gicitkəndən hazırlanmış şorba, qutab və kükü kimi yeməklərlə qidalanmaq lazımdır.

Yetişmə mərhələsində olan yerkökünün yaşıl hissəsi təzə halda yeyiləndə və ya salatlara qatılanda gözün görmə qabiliyyətində yaxşılaşdırmaya səbəb olur. Onun yaşıl hissələrini qurudaraq ədviyyat kimi də istifadə etmək olar. Qaragilə, quşüzümü, soğan, sarımsaq, badam, qara gilas, cəfəri, xiyar, şüyüd, kök, çuğundur və kərəviz kimi meyvə-tərəvəzlər gözün görmə qabiliyyətini yaxşılaşdırır. Qida rasionunda əsasən tərkibi A, B qrup vitaminləri ilə zəngin olan ərzaqlardan istifadə edilməlidir.

Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün bir sıra xalq təbabəti üsulları da var. Təzə yığılmış keşniş xırdalanır və gündə 1-2 dəfə10-20 dəqiqə gözlərin üstünə qoyulub saxlanılır.

Toyuq korluğu zamanı gündə iki dəfə yeməkdən sonra bir qədər suda həll edilmiş 1 damcı dəmrovotu şirəsi içmək lazımdır.

Kələm yarpaqları təmiz yuyularaq qaynadılır, soyuyandan sonra yarpaqları gündə 3-4 dəfə yeyilir, qaynadıldığı su içilir.

Kartofun üzərində yaranan cücərtilər toplanaraq qurudulur, alınan xammaldan 1 xörək qaşığının üzərinə 1 stəkan 40 faizli spirt əlavə edilir, 1 sutka saxlanılır, süzülür və gündə üç dəfə yeməkdən sonra 1 çay qaşığı qəbul edilir.

Gülümbahar və göyçiçəyin dəmləmələri islatma şəklində göz qapaqlarının üzərinə qoyulanda göz yorğunluğunu aradan qaldırır. Yaxındangörmə zamanı qurudulub üyüdülmüş yemişan meyvələri 1:1 nisbətində balla qarışdırılaraq gündə 3 xörək qaşığı qəbul edilir.

## "Futbol Messiyə mundialın kubokunu borcludur"



Argentina millisinin baş məşqçisi Xorxe Sampaoli futbolçusu Lionel Messi haqda danışıb. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, o, DÇ-2018-in seçmə mərhələsinin son turunda Ekvadora qarşı matçda (3:1) het-trikə imza atan 30 yaşlı hücumçu barədə bunları deyib: "Dünyanın ən güclü futbolçusu Argentina vətəndaşı olduğu üçün çox şanslıyıq. Messi Argentinaya dünya çempionatının kubokunu borclu deyil. Amma futbol Messiyə mundialın kubokunu borcludur".

X.Sampaoli bildirib ki, millidə hər şey Messidən asılı olmamalıdır: "O, bu gün bütün bacarığını nümayiş etdirdi. Komandanın üzvləri dünya çempionatında ona daha çox kömək etməlidir". Qeyd edək ki, Argentina Ekvador üzərində qələbədən sonra mundiala birbaşa vəsiqə qazanıb.




## Sərbəst güləşçilərimiz "Qitələrarası Kubok" beynəlxalq turnirində mübarizə aparacaqlar

Oktyabrın 14-15-də Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə sayca 9-cu "Qitələrarası Kubok" beynəlxalq turniri keçiriləcək. AZƏRTAC xəbər verir ki, turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Türkiyə, Polşa, Rumıniya, Peru, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Ukrayna və Belarus idmançılarının iştirakı gözlənilir.

Yığma komandamızın məşqçiləri Arif Abdullayev və Rövşən Hacıyevin rəhbərliyi altında Xasavyurtda Pərviz İbrahimov (57 kq), Əli Rəhimzadə, Qalib Əliyev (hər ikisi 61 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov, Murtuzəli Müslümov, Qitinomaqomed Hacıyev (hamısı 70 kq), Aleksandr Qostiyev, Hacımurad Məhəmmədsəidov (hər ikisi 86 kq), Aslanbek Alborov (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) mübarizə aparacaqlar. Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakimlər Qərib Əliyev, Vaqif Zeynallı, Asif Şirəliyev və Sədi Quliyev təmsil edəcəklər.

## Gənc ağır atletlərimiz Avropa çempionatında iştirak edəcəklər

FEDERATA SHQIPTARE E PESHINGRITJES TIRANE

Oktyabrın 15-22-də Albaniyanın paytaxtı Tiranada gənclər arasında ağır atletika üzrə Avropa çempionatı keçiriləcək. Azərbaycan Ağır Atletika Federasiyasının məlumatına görə, yarışda 36 ölkədən 405 atlet (170 qadın və 235 kişi) körpücük üzərinə çıxacaq. Turnirdə Azərbaycanın gənclərdən ibarət yığma komandasının üzvləri də iştirak edəcəklər.

Qadınların yarışında ölkəmizi Elnarə Abbasova (63kq) və Mərziyyə Məhərrəmova (48 kq) təmsil edəcəklər. Kişilərin mübarizəsində isə Ruslan Rzazadə (56 kq), Məhəmməd Məmmədli, Kənan Xəlilov (hər ikisi 62 kq), İsa Rüstəmov (69 kq), Hüseyn Rüstəmov (94 kq), Paşa İbrahimli (69 kq) və Azər Məmmədli (105 kq-dan yuxarı) körpücük üzərinə çıxacaqlar.



## Əfsanəvi futbolçu Liberiyada prezident seçilib

Əfsanəvi futbolçu Corc Vea ölkəsi Liberiyada prezident seçilib. AZƏRTAC xəbər verir ki, vaxtilə İtaliyanın "Milan" klubunda oynayan 51 yaşlı futbolçu seçkilərdə ən çox səsi qazanan şəxs olub. Qeyd edək ki, C.Vea 1995-ci ildə FIFA-nın "Qızıl top" mükafatını qazanıb. O, bu mükafata layiq görülən ilk afrikalı futbolçu olub. Vea 1995-1996-cı və 1997-1998-ci illərdə "Milan" klubu ilə İtaliya çempionluğunu yaşayıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompyuter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**